


## AZƏRBAYCAN TƏSDİQLƏNMİŞ ZƏMANƏT İSTƏYİR

Prezident İlham Əliyev: "Əgər Ermənistan hesab edir ki, bizə sülh onlardan çox lazımdır, fikrimcə, onlar yanılırlar. Biz sülhü onlar istədiyi qədər istəyirik. Əgər onlara bu lazımdırsa, onda bizə də lazımdır. Əgər onlara lazım deyilsə, onda bizə də lazım deyil".

SƏHİFƏ 4-də

# SÜLHƏ DOĞRU ÖNƏMLİ ADDIM



Azərbaycan və Ermənistan arasında etimad mühitinin gücləndirilməsini nəzərdə tutan birgə açıqlama maraqla qarşılanıb. Bu razılaşma tərəflər arasında aparılmış birbaşa danışıqlar nəticəsində əldə olunub və heç bir üçüncü ölkə tərəfindən vasitəçilik edilməyib.

Bu addım Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan insanına, ölkə vətəndaşlarına, hərbçilərə verdiyi dəyərin, əsirlikdə olan şəxslərin yaxınlarının hisslərinə şərik olmasının bariz nümunəsidir. İlham Əliyev bir daha sübut etdi ki, o, hər bir azərbaycanlının Prezidentidir.

SƏHİFƏ 2-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi

www.kaspi.az

9 DEKABR ŞƏNBƏ 2023 I 47 (4148)
Qiyməti - 40 qəpik






## SƏN ELƏ BİR ZİRVƏSƏN...

Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri zəngin miras kimi nəsildən-nəslə ötürüldükcə, tarixi şəxsiyyətin zəngin ömür yolu daim örnək göstəriləcək. Görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyev ilk növbədə yaratdığı müstəqil dövlətimizin timsalında yaşayır və yaşayacaq!

SƏHİFƏ 5-də



# QALİB AZƏRBAYCANIN İLK SEÇKİ SINAĞI

Ölkədə postmüharibə dövrünün quruculuq mərhələsi start götürüb. Qarşıdakı hədəflərin unikallığı və modernliyi tək dövlətin deyil, cəmiyyətin və hər bir fərdin yeni dövrə münasibət bildirməyini tələb edir.

**PREZİDENT ƏSAS VƏDİNİ YERİNƏ YETİRİB**

Bugünkü qalib Azərbaycan hər bir vətəndaşın Prezidentindən əsas gözləntisi, eyni zamanda, dövlət başçısının da seçilərkən xalqa verdiyi başlıca vəd idi. Azərbaycan xalqını bu illər ərzində mübarizənin həm hərbi, həm də diplomatik cəbhəsində əldə etdiyi zəfərə doğru aparan yeganə amal məhz bu olub: ərazi bütövlüyümüzün bərpası, bayrağımızın Qarabağ və Şərqi Zəngəzurda dalğalanması.

**ADDIM-ADDIM BU GÜNƏ DOĞRU**

Prezident İlham Əliyev 2003-cü ildən etibarən xalqı planlı şəkildə, addım-addım məhz bu günə doğru aparıb. Hərbi qələbənin yolu isə ölkədə yaranmış güclü və sabit iqtisadiyyat, qüdrətli ordu, dayanıqlı sosial rifah və vətənpərvər cəmiyyətin formalaşmasından keçir.

SƏHİFƏ 3-də

"BU, XƏYALIMA BELƏ GƏLMƏZDİ..."

## BAKIDA QALIB YALNIZ KOMEDİYA ÇƏKMƏK İSTƏMİRDİM




ABŞ-də yaşayan azərbaycanlı rejissor, prodüser Elmar Bayramov: "Azərbaycanda döyüş, aksiyon səhnələri çəkmək daha rahatdır. Məsələn, biri dağdan düşür, digəri tullanır, işin də rahat gedir. ABŞ-də kino çəkilişi zamanı birinin dağdan aşağı düşməsinə xərclənən pulla Azərbaycanda üç kino çəkmək olar. İlk səhvim öz hesabıma döyüş filmi çəkməyim idi".

SƏHİFƏ 8-9-da



## KİNO SƏNAYESİ ƏDV-DƏN AZAD OLUNARSA...

Azərbaycan filmi dedikdə üzdə təbəssüm yaransa da, bir neçə saniyədə bu təbəssüm yerini tərəddüd dolu baxışlara verir. Çünki son illərdə kino sənayesi ilə bağlı durum heç də yaxşı deyil. "Bəyin oğurlanaması" filmində deyildiyi kimi, "səkkiz min pul alıblar, oynamaqlarına bax".

SƏHİFƏ 15-də



## MÜQƏDDƏS KİLSƏLƏR, VEZUVİ VƏ MARADONA

Neapol digər italyan şəhərlərindən fərqlidir: daha qaynar və səmimidir. Burada insanlar hay-küy salır, söyüş söyür, mübahisə edir, barışır, mahnı oxuyur, rəqs edirlər. Şəhəri fərqləndirən digər əlamət Maradonaya olan sevgidir. Hər küncdə, divarda onun qrafiti ilə üz-üzəsən.

SƏHİFƏ 14-də

## RUSİYADAN ERMƏNİSTANA LARS ŞAPALAĞI

Avrasiya İqtisadi İttifaqı Ermənistanda istehsal edilən məhsulların istehlak edildiyi yeganə bazardır. Avropa bazarları isə yaxın illərdə belə, erməni istehsalçılar üçün əlçatmaz arzu kimi qalacaq.

SƏHİFƏ 6-da

## YUMURTANIN QİYMƏTİ ARTACAQ?

Rusiya bizim beş quşçuluq müəssisəmizi reyestrdən keçirib və sənədləşdirib. Bu da o deməkdir ki, yaxın günlərdə sahibkarlarımız Rusiyaya da yumurta ixrac etməyə başlayacaq.

SƏHİFƏ 13-də



"Təhsil bütün qapıları açır"

SƏHİFƏ 11-də



SOCAR və Çin şirkəti arasında müzakirə

SƏHİFƏ 10-da



Gürcü müxalifəti lider axtarışında

SƏHİFƏ 7-də



Peyvənd əleyhinə təbliğatın nəticəsi

SƏHİFƏ 12-də



Qızlarımız bu dəfə bacardı!

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# “Azərbaycan Avropa Şurasının dəyərli üzvüdür”

Prezident İlham Əliyev dekabrın 8-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçi qəbul edib. Qonaq Azərbaycanın 2001-ci ildən Avropa Şurasının dəyərli üzvü olduğunu vurğulayıb.

Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi istiqamətində atdığı addımları təqdir etdiklərini deyən Baş katib bu xüsusda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanatı və bundan irəli gələn məsələləri, xüsusilə iki ölkə arasında etimad quruculuğu tədbirləri istiqamətində atılan addımları yüksək qiymətləndirdiklərini bildirib, Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu proseslərinə Avropa Şurasının töhfə verməyə hazır olduğunu vurğulayıb.

Dövlət başçısı Azərbaycan ilə Avropa Şurası arasında bu illər ərzində çox sıx əməkdaşlığın formalaşdığını qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanat qarşılıqlı sülh gündəliyinin irəli aparılması və ölkələrimiz arasında münasibətlərin normallaşdırılması üçün qarşılıqlı siyasi iradənin bir daha nümayişidir. Dövlət başçısı vurğulayıb ki, Avropa Şurası da iki ölkə arasında etimad quruculuğu proseslərinə töhfə vermək üçün çox yaxşı platformadır.

Söhbət zamanı AŞPA-da Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında da əlaqələrin və konstruktiv dialoqun vacibliyi bildirilib. Praktiki sahələrdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf etdiyi qeyd olunub.

Görüşdə mədəniyyətlərarası dialoq prosesində Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığa toxunuldu, bu əməkdaşlığın davam etdirilməsinin önəmi vurğulandı. Ölkəmizdə ənənəvi keçirilən mədəniyyətlərarası dialoq forumunda Avropa Şurasının tərəfdaş qismində çıxış etməsinin, həmçinin Avropa Şurasında islamofobiya meyillərinə qarşı xüsusi nümayəndənin təyin olunmasının təqdir edildiyi bildirildi.



# Sülhə doğru atılan önəmli addım

Azərbaycan və Ermənistan arasında etimad mühitinin gücləndirilməsini nəzərdə tutan birgə açıqlama maraqla qarşılanıb. Bu razılaşma tərəflər arasında aparılmış birbaşa danışıqlar nəticəsində əldə olunub və heç bir üçüncü ölkə tərəfindən vasitəçilik edilməyib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının iki ölkə arasında etimad mühitinin gücləndirilməsini nəzərdə tutan birgə açıqlaması müsbət qarşılanıb.

Birgə açıqlamada bildirilir ki, hər iki ölkə regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir.

**MÜZAKİRƏLƏR DAVAM EDƏCƏK**

Humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, Azərbaycan 32 erməni hərbçini azad edir. Ermənistan isə bunun müqabilində 2 azərbaycanlı hərbçini azad edir. Bundan əlavə, xoş niyyətin təzahürü olaraq, Azərbaycan və Ermənistan beynəlxalq səviyyədə biri-birilərinə münasibətdə bəzi məsələlərdə dəstək nümayiş etdiriblər. “Azərbaycan Respublikası və Ermənistan Respublikası yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar”, - deyə birgə açıqlamada vurğulanır.



## ONLAR SİYAHIYA DAXİL DEYİL

Qeyd edək ki, Ermənistana qaytarılması nəzərdə tutulan 32 nəfər (26 nəfər 2020-ci ilin dekabrında Hadrut istiqamətində keçirilmiş antiterror tədbirləri zamanı həbs edilmiş şəxslər, qalan 6 nəfər müxtəlif vaxtlarda sərhəddə saxlanılmış şəxslər) artıq cəzalarının böyük hissəsini çəkiblər.

Bu siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlər törətmiş qondarma rejimin rəhbərləri Araik Arutunyan, Bako Saakyan, Arkadi Qukasyan, Ruben Vardanyan, o cümlədən Vaqif Xaçaturyan, Alyoşa Xosrovyan kimi şəxslər daxil deyil və ola da bilməz.

Bu addım Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan insanına, ölkə vətəndaşlarına, hərbçilərə verdiyi dəyərin, əsirlikdə olan şəxslərin yaxınlarının hisslərinə şərik olmasının bariz nümunəsidir. Prezident İlham Əliyev bir daha sübut etdi ki, o, hər bir azərbaycanlının Prezidentidir. Xüsusilə vurğulanmalıdır ki, bu razılaşma Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində əldə olunub və heç bir üçüncü ölkə tərəfindən vasitəçilik edilməyib. Bu, bir daha göstərir ki, Azərbaycan və Ermənistan vasitəçilər olmadan sülh prosesini irəli apara bilərlər.

## BİRGƏ AÇIQLAMAYA BEYNƏLXALQ REAKSİYALAR

Tərəflərin birgə açıqlamasına beynəlxalq reaksiyalar da maraqlıdır. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycanla Ermənistan birgə açıqlamasını alqışlayıb. O, bu barədə sosial şəbəkə hesabında yazıb. “Tərəflər arasında ikitərəfli dialoqun qurulması və dərinləşdirilməsi Aİ-nin rəhbərlik etdiyi Brüssel prosesinin əsas məqsədi olub. Bugünkü irəliləyiş vacib addımdır. İndi liderləri Ermənistan-Azərbaycan sülh razılaşmasını tez bir zamanda yekunlaşdırmağa çağırıram”, – o qeyd edib.

ABŞ də Azərbaycan və Ermənistanın saxlanılanların dəyişdirilməsi razılaşmasını alqışlayıb. Bu barədə Dövlət Departamentinin rəsmi nümayəndəsi Metyu Millerin müvafiq mövzulu bəyanatında bildirilib.

“Biz Azərbaycan Prezidenti Əliyevi və Ermənistanın Baş naziri Paşinyanı Cənubi Qafqaz xalqları üçün daha dinc və firavan gələcək üçün zəmin yaratmaq istiqamətindəki birgə səylərinə görə alqışlayırıq. Birləşmiş Ştatlar davamlı və ləyaqətli sülhə nail olmaq üçün səyləri güclü şəkildə dəstəkləməyə davam edəcək”, – sənəddə qeyd olunub.

Birgə açıqlamaya Rusiya da münasibət bildirib. Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarova bildirilib ki, Moskva Bakı və İrəvan arasında Ermənistan və Azərbaycan hərbçilərinin qarşılıqlı azad edilməsinə dair razılaşmanı alqışlayır.

BUDƏFƏKİ PROSES BÜTÜN SUVEREN ƏRAZİLƏRİMİZİ ƏHATƏ EDƏCƏK

# QALİB AZƏRBAYCANIN İLK SEÇKİ SINAĞI

**Azərbaycanda postmüharibə dövrünün quruculuq mərhələsi start götürüb. Qarşıdakı hədəflərin unikallığı və modernliyi tək dövlətin deyil, cəmiyyətin və hər bir fərdin yeni dövrə münasibət bildirməyini tələb edir. Bunun yeganə yolu və vasitəsi seçkilərdir.**





RÜSTƏM QARAXANLI

Dekabrın 7-də baş vermiş iki hadisə fərqli məzmunlarına baxmayaraq, 44 günlük müharibədən sonra Azərbaycanın yiyələndiyi yeni status və inkişaf prosesinin növbəti mərhələsindən doğan vəzifə və çağırışların carçısı oldu:

- Prezident İlham Əliyev "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncam imzaladı;
- Azərbaycan və Ermənistanın yaydıqları birgə məlumatda əsirlərin dəyişdirilməsi və iki dövlət arasındakı münasibətlərdə gərginliyin azaldılması üçün bir sıra qarşılıqlı addımların atılması barədə ictimaiyyətə məlumat verildi.

## POSTMÜHARİBƏ DÖVRÜNÜN QALİB AZƏRBAYCANI

Bu iki xəbərin bir-biri ilə əlaqəsinin olmamasına baxmayaraq, hər ikisi postmüharibə dövrünün qalib Azərbaycanının reallıqlarından irəli gəlir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala, daha geniş zaman kəsiyi üçün götürsək, iki əsrdən çox tarixi olan ədalətsizliyə son qoyub. Əvvəl 44 günlük müharibə ərzində 27 il yad əsarət altında olmuş torpaqlarımız hərbi yolla azad olunub və həm Ermənistanla qarşıdurmada, həm də böyük ölçüdə bölgədə yeni reallıq yaranıb. Üç il sonra isə zərgər dəqiqliyi ilə həyata keçirilmiş nümunəvi və hərb dərsliklərinə düşəcək antiterror tədbirləri ilə ötən əsrin sonlarından torpaqlarımızda qol-budaq açmış aqressiv separatçılığın kökü kəsilib. Özünü "müstəqil" elan edib Azərbaycan dövlətinə və xalqına qarşı hərbi cinayətlər törətmiş kriminal xuntanın üzvləri həbs olunub, qanun qarşısında cavab verməK üçün Bakıya gətirilib.

## ADDIM-ADDIM BU GÜNƏ DOĞRU

Bugünkü qalib Azərbaycan hər bir vətəndaşın Prezidentindən əsas gözləntisi, eyni zamanda, dövlət başçısının da bu vəzifəyə ilk dəfə seçilərkən xalqa verdiyi başlıca vəd idi. Azərbaycan xalqını bu illər ərzində müharibənin, mübarizənin həm hərbi, həm də diplomatik cəbhəsində əldə etdiyi zəfərə doğru aparan yeganə amal məhz bu olub: ərazi bütövlüyümüzün bərpası və bayrağımızın Qarabağ və Şərqi Zəngəzurun hər bir guşəsində dalğalanması. Prezident İlham Əliyev 2003-cü ildən etibarən xalqı planlı şəkildə, addım-addım məhz bu günə doğru aparıb. Hərbi qələbənin yolu isə ölkədə yaranmış güclü və sabit iqtisadiyyat, qüdrətli ordu, dayanıqlı sosial rifah və vətənpərvər cəmiyyətin formalaşmasından keçir. 27 sentyabr 2020-ci ildən 19-20 sentyabr 2023-cü ilədək Azərbaycan xalqı bu siyasətə öz qarşılığını verib: dövlət başçısının ətrafında formalaşmış milli həmrəylik və birliklə.

## LİDERDƏN GƏLƏN TƏŞƏBBÜS

Fevralın 7-ə təyin olunmuş növbədənkənar prezident seçkilərində xalq dövlət başçısına yeni dövr Azərbaycanın önündə duran hədəflərin icrası üçün mandat verməlidir. Bu, eyni zamanda, Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısında hesabatıdır. Verilən vədlərə nail olunub, qarşıya qoyulmuş proqram yerinə yetirilib, ona görə də xalq liderinin ötən dövrdəki fəaliyyətinə qiymət verməlidir. Bu addımın unikallığı ondadır ki, təşəbbüs xalqdan deyil, liderdən gəlir.

## SEÇKİLƏRİN BAŞLICA MƏNTİQİ...

Növbəti seçkilərə hələ xeyli müddət qalmasına baxmayaraq, həm islahatların davam etdirilməsi, həm də işğaldan azad edilmiş torpaqların bərpası, infrastrukturun tikilməsi və "Böyük Qayıdış"ın həyata keçirilməsi kimi ümummilli məqsədlərin icrası xalqla birlikdə reallaşdırılmalıdır. Bizim sürətlə dəyişən və yenilənən dünyada ləngimək kimi lüksümüz yoxdur.

Əldə edilən zəfər Azərbaycan xalqının əvvəl ümummilli lider Heydər Əliyevin ətrafında birləşib müstəqil dövlətin əsaslarının qoyulmasının, sonra isə Prezident İlham Əliyevə dəstək durub vahid güc olaraq düşmən üzərində qələbənin qazanılmasının nəticəsidir. Prezident İlham Əliyev ümumxalq əhəmiyyətli bütün addımlarını vətəndaşla razılaşdıraraq həyata keçirib. Bu milli həmrəylik gənc dövlətimizə qarşı ən həssas dövrlərdə edilən təzyiq və təhdidlərin neytrallaşdırılmasının açarı rolunu oynayıb. İstənilən xarici təsir daxili birliyin qarşısında acizdir. Prezident İlham Əliyev bu həmrəylik mühitini yaratmaqla və beynəlxalq hüquq müstəvisində üstünlüyü qazanmaqla xalqımızın qarşısında duran, illər boyu bizə "hesablaşın" deyərək razı salmaq istədikləri ədalətsizliyi hazırkı gerçəkliklə əvəz etməyə nail olub. Bu gün fövqəldövlətlər belə Azərbaycanın müstəqil siyasəti ilə hesablaşmaq məcburiyyətindədirlər. Ancaq Prezident üçün xalqın rəyindən önəmli qiymət ola bilməz. Fevralın 7-ə təyin olunmuş seçkilərin başlıca məntiqi məhz budur.




Azərbaycanda postmüharibə dövrünün quruculuq mərhələsi start götürüb. Qarşıdakı hədəflərin unikallığı və modernliyi tək dövlətin deyil, cəmiyyətin və hər bir fərdin yeni dövrə münasibət bildirməyini tələb edir. Bunun yeganə yolu və vasitəsi seçkilərdir. Özü də bu seçkiləri fərqləndirən ən başlıca amil müstəqil Azərbaycanın dövlətçilik tarixində ilk dəfə olaraq prosesin bütün suveren ərazilərimizi əhatə etməsidir...

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



RƏSMİ BAKIDAN ERMƏNİSTANA VƏ VASİTƏÇİLƏRƏ SÜLH MESAJLARI

# AZƏRBAYCAN TƏSDİQLƏNMİŞ ZƏMANƏT İSTƏYİR

Prezident İlham Əliyev: "Əgər Ermənistan hesab edir ki, bizə sülh onlardan çox lazımdır, fikrimcə, onlar yanılırlar. Biz sülhü onlar istədiyi qədər istəyirik. Əgər onlara bu lazımdırsa, onda bizə də lazımdır. Əgər onlara lazım deyilsə, onda bizə də lazım deyil".








AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin sülh danışıqlarındakı mövcud vəziyyətlə bağlı son açıqlamaları prosesə tam aydınlıq gətirib. Dövlət başçısı ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışında mühüm məqamlara toxunub. Üç saata yaxan davam edən və dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin qatıldığı Forumda səslənən fikirlər əslində rəsmi Bakının həm vasitəçilərə, həm də qarşı tərəfə növbəti mesajı və çağırışıdır.

### BAKININ ZƏMANƏT TƏLƏBİ

Prezident İlham Əliyev bildirib ki, sülh sazişi, əslində, sülhü tam əks etdirmir. Məlum səbəblərdən Azərbaycana Ermənistanda heç bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı qəti şəkildə, təsdiqlənmiş zəmanət lazımdır. "Biz Ermənistanda nə baş verdiyini bilirik və həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox pis məsləhətçiləri var", - dövlət başçısı bildirib. Göründüyü kimi, rəsmi Bakı Ermənistanda cərəyan edən prosesləri, İrəvanın atdığı addımları çox diqqətlə izləyir. Qarşı tərəfdən gələcəkdə sülhə gələ biləcək təhdidlərin qarşısını almaq üçün önləyici şərtlərini irəli sürür.

### AVROPA PARLAMENTİNİN TƏXRİBATLARI

Prezident İlham Əliyevin açıqlamalarında diqqət çəkən əsas məqamlardan biri də sülh danışıqları prosesində Qərbin rolu ilə bağlıdır. Dövlət başçısı Qranada görüşündən imtinasının səbəblərini açıqlayaraq Brüsselin gələcək vasitəçilik missiyasında nələrə diqqət etməli olduğunu açıq şəkildə bildirib. Bu məsələdə sülhə manеə olan məqamları da sadalayıb: "Əgər siz neytrallığınızı itirirsinizsə, artıq vasitəçi ola bilməzsiniz, bu şansı əldən buraxırsınız. Biz ölkələrə tərəf tutmamaq üçün təsir edə bilmərik. Bunun müxtəlif səbəbləri var. Bu halda artıq vasitəçi olmaq şansı əldən buraxıldı. Biz rəsmən bəyan etdik, artıq münasib hesab etmirik ki, Fransanın hər hansı bir nümayəndəsi Ermənistanla Azərbaycan arasında normallaşma prosesində iştirak etsin. Buna görə, bu məxsusi səbəbə görə mən Qranadaya getmədim".

Dövlət başçısı digər səbəb kimi, Avropa Parlamentinin Azərbaycana qarşı ədalətsiz və qərəzli qətnamələrini göstərib. Bildirib ki, Qranada görüşü oktyabrın 5-nə təyin edilmişdi: "Elə həmin gün Avropa Parlamenti Azərbaycanla bağlı müzakirələr təşkil etdi. Ona görə də qəsdən bu anti-Azərbaycan qətnaməni mənim Qranadada olmalı olduğum gün qəbul etməyi planlaşdırdılar ki, Azərbaycanla bağlı öz mövqelərini nümayiş etdirə bilsinlər".



## BAKININ BRÜSSELDƏN İSTƏDİKLƏRİ DƏ KONKRETDİR

Bakının Brüsseldən vasitəçilik missiyasının davamı üçün istəkləri də məlumdur. Tərəflər bu formatda mümkün yeni görüşü müzakirə edirlər. Prezidentin də qeyd etdiyi kimi, bu formatda artıq beşdən çox görüş keçirilib: "Növbəti görüşümüz isə nəticəyönümlü olmalıdır. Biz əvvəlcədən bəyanat layihəsini razılaşdırmalıyıq. Bu, Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında razılaşdırılmalıdır. Bu görüş yaxşı hazırlanmalı və nəticəyönümlü olmalıdır. Çünki nəticəyönümlü olmasa, həm xalqlarımıza, həm də beynəlxalq aləmə yanlış mesaj vermiş olarıq. Bu, bizim mövqeyimizdir və hesab edirəm ki, bu, Brüsseldə anlayışla qəbul olunur".

### AZƏRBAYCANA QARŞI İTTİHAMLAR YOLVERİLMƏZDİR

Bakının Qərb institutlarının bəzi rəhbərlərinin sülh prosesinə yanaşmasındakı ikili standartlardan da narazılığı var. Xüsusilə, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrelin son bəyanatına ali səviyyədə münasibət bildirilib. "Cənab Borrelin son bəyanatı tamamilə faydasızdır. Onun Qarabağı tərk etmiş 150 min erməni ilə bağlı açıqlaması yalandır. Təəssüf edirəm ki, belə bir təcrübəli avropalı diplomat yalan danışır. Hətta ermənilərin özləri Qarabağı tərk edənlərin 150 min yox, 100 min olduğunu deyirdilər. Əgər cənab Borrel bir ay ərzində belə davam etsə, 200 min olacağını söyləyəcək. Bu, onun gördüyü yuxulardan asılı olacaq. Amma yenə də nəinki rəqəmlərlə olan bu manipulyasiya, heç bizim etmədiyimiz bir şeylə bağlı Azərbaycana qarşı ittihamlar da qətiyyən yolverilməzdir", - Prezident vurğulayıb.

### "BİZ SÜLHÜ ONLAR İSTƏDİYİ QƏDƏR İSTƏYİRİK"

Göründüyü kimi, Azərbaycan sülh danışıqları prosesində vasitəçinin kimliyindən və formatdan asılı olmayaraq müsbət nəticələr istəyir. Lakin bu istək qarşılıqlı olmalıdır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, əgər Ermənistan hesab edir ki, bizə sülh onlardan çox lazımdır, yanılır: "Biz sülhü onlar istədiyi qədər istəyirik. Əgər onlara bu lazımdırsa, onda bizə də lazımdır. Əgər onlara lazım deyilsə, onda bizə də lazım deyil. Əgər onlar Azərbaycanın ərazi bütövlüyünü bəyanatla deyil, imzası ilə tanıyacaqlarsa, onda biz də eyni addım atacağıq".

Mövcud reallıq, Bakının beynəlxalq hüquqa əsaslanan ədalətli şərtləri və tələbləri çərçivəsində prosesin uğurlu alınmasının əsas məsuliyyəti Ermənistan rəhbərliyinin, onu yönləndirənlərin üzərinə düşür.



# SƏN ELƏ BİR ZİRVƏSƏN...

**Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri zəngin miras kimi nəsildən-nəsilə ötürüldükcə, tarixi şəxsiyyətin zəngin ömür yolu daim örnək göstəriləcək. Heydər Əliyev ilk növbədə yaratdığı müstəqil dövlətimizin timsalında yaşayır və yaşayacaq!**

LƏTİFƏ ƏLƏKBƏROVA,
SEVİNC CƏFƏROVA

Heydər Əliyev "ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır", - deyirdi. Bu qiymətli fikir ümummilli liderin müstəqil Azərbaycanın vətəndaşlarını necə görmək arzusunu özündə ifadə edirdi. Heydər Əliyev özü mənsub olduğu cəmiyyəti düşünərək bu cür yaşayırdı, bütün vətəndaşların eyni amala xidmət etməsini arzulayaraq əsl vətənpərvər mövqeyini ortaya qoyurdu. Müstəqilliyimizin ilk illərində belə, məsuliyyətli vətəndaşların yetişdirilməsi vəzifəsinin uğurla həyata keçirilməsi üçün Azərbaycan dövlətinin ideya-siyasi təməlini yaratmaq, onun iqtisadi qüdrətinə və siyasi nüfuzuna güclü inam formalaşdırmaq tələb olunurdu. Ümummilli lider vətənpərvər gəncliyin yetişdirilməsinin məsuliyyətli vətəndaş formalaşdırmaq prosesində başlıca prinsip kimi qəbul edilməsinə üstünlük verirdi.

### "VƏTƏNPƏRVƏRLİK BÖYÜK MƏFHUMDUR"

Heydər Əliyev deyirdi ki, vətənpərvərlik böyük məfhumdur: "Vətənpərvər gənclərin yetişdirilməsi tək təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq ailədə başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir. Bütün cəmiyyətin, onun hər bir üzvünün əməllərindən müsbət yeniliklərlə yetkinləşir". Heydər Əliyev həmin amilləri nəzərə almaqla bu mühüm vəzifənin yerinə yetirilməsinə başladı.

Ölkəyə rəhbərlik missiyasını üzərinə götürdüyü ilk günlərdən Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin, iqtisadiyyatının, səhiyyəsinin inkişafı üçün Heydər Əliyevin misilsiz fəaliyyəti qısa zamanda nəticələrini verməyə başladı. Həm məktəblilərin, həm də tələbələrin təhsilə maraqlarının artırılması yolları daim araşdırır, təhsil sisteminin yeni gələcək proqramının hazırlanmasının həyata keçirilməsi üçün göstərişlər verirdi. Heydər Əliyev təhsildə yüksək nəticələr əldə etmiş tələbələrlə görüşərək onlarla səmimi söhbətlər aparırdı. Dövlət tərəfindən bu qayğının gücləndirilməsi, məktəblilərin ali təhsil alması üçün daha əlverişli şəraitin yaradılmasını təmin etmək məqsədi ilə ümummilli liderin 2001-ci ilin 3 sentyabrında imzaladığı fərman mühüm əhəmiyyət daşıyırdı. Həmin fərmanla ilk dəfə 2001-2002 tədris ilində yüksək nəticə əldə edən tələbələr "Prezident təqaüdü" ilə mükafatlandırıldı.




**Foto:** Firudin Səlimov/Global Media Group

## ULU ÖNDƏRİN GƏNCLƏRƏ TÖVSİYƏSİ

Ulu öndər hər zaman milli ali təhsilimiz, gənc milli kadrlarımız, Azərbaycan elminə böyük töhfələr vermiş və xidmətlər göstərmiş qocaman professorlarımız, alimlərimizlə fəxr etdiyini deyirdi: "Bu, böyük nemətdir. Gəlin bundan sonra bu nemətləri əlimizdə möhkəm saxlayaq".

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində gəncliyi bir an belə diqqətdən kənarda qoymayıb. Ulu öndərin siyasətində gənclərin ictimai-siyasi fəallığının artırılması və dövlət quruculuğunda təmsil olunması əsas məqamlardan biri kimi nəzərdən keçirilirdi. Bunun məntiqi nəticəsi olaraq ümummilli lider 1996-cı il fevralın 2-də Azərbaycan Respublikası Gənclərinin 1-ci forumunda çıxışında gəncləri milli dövlət quruculuğu işində daha fəal iştirak etməyə, vətənpərvər şəxsiyyətlər kimi formalaşmağa çağırdı: "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyat yolunu qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında da düşünməlidir".



## İŞĞAL ALTINDAKI TORPAQLAR "BİZİM ÜRƏYİMİZDƏ OLAN YARADIR" DEYİRDİ

Ümummilli liderin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri zəngin miras kimi nəsildən-nəsilə ötürüldükcə, tarixi şəxsiyyətin zəngin ömür yolu daim örnək göstəriləcək. Heydər Əliyev ilk növbədə yaratdığı müstəqil dövlətimizin timsalında yaşayır və yaşayacaq!

Torpaqlarımızın 20 faizi erməni tapdağı altında olan zamanlarda ulu öndər "bu, bizim ürəyimizdə olan yaradır", - deyirdi. O, böyük ümidlə torpaqlarımızın azad olunacağı əminliyini ifadə edirdi. Yorulmaz fəaliyyəti ilə Azərbaycanı qələbəyə aparan yolun təməlini atırdı. Nəhayət, o gün gəldi, artıq ürəyimizdəki yara sağaldı. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi, qorxmaz, mərd əsgər və zabitlərimizin "dəmir yumruğ"u sayəsində Qarabağ erməni işğalından azad edildi. Bu gün artıq Qarabağın hər guşəsində Azərbaycan bayrağı dalğalanır.

Azərbaycanın milli maraqlarını hər zaman uca tutan ulu öndər Heydər Əliyev "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur", - deyirdi. İndi isə hamımız qürurla deyirik: "Qarabağ Azərbaycandır!".

### DAİM YAŞAYACAQ, XATIRLANACAQ

Nə qədər zaman keçsə də, ictimai şüur Heydər Əliyevi əfsanəvi şəxsiyyət, mahir siyasətçi, görkəmli dövlət xadimi kimi tanıyacaq, xatırlayacaq.

Heydər Əliyevin vətənpərvərlik ideyalarını rəhbər tutaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbələri üçün idman və intellekt yarışları təşkil olunur. Riyaziyyat-İnformatika Fənn birləşməsinin müəllimləri intellektin inkişafında rolu olan bilik yarışlarında yüksək nəticələr qazanan tələbələri digər yarışlara sövq edir. May ayında təşkil olunmuş olimpiadalarda uğur qazanan tələbələrdə özünəgüvənin şahidi olduq. Bu da onlarda əzmkarlıq, mübarizlik, vətənpərvərlik hisslərini inkişaf etdirir. Məqsədimiz mərd, savadlı, qorxmaz, vətənə sadiq Polad Həşimovlar, Mübariz İbrahimovlar yetişdirməkdir. Biz müəllimlər Heydər Əliyevin "gənclər gələcəyin aparıcı qüvvələridirlər" ideyasına sadiq qalaraq onların hərtərəfli inkişafı üçün əlimizdən gələni əsirgəməməyə çalışacaq, xalqımıza sadiq gənclər yetişdirəcəyik.

KREML İPİ ƏLİNDƏ OLAN İRƏVANIN İQTİSADİ NƏFƏSLİYİNİ KƏSMƏK ÜZRƏDİR

# RUSİYADAN ERMƏNİSTANA LARS ŞAPALAĞI






Avrasiya İqtisadi İttifaqı Ermənistanda istehsal edilən məhsulların istehlak edildiyi yeganə bazardır. Avropa bazarları isə yaxın illərdə belə, erməni istehsalçılar üçün əlçatmaz arzu kimi qalacaq.

**FUAD ABASOĞLU**

Ermənistandan Rusiyaya Gürcüstan vasitəsilə ötürülən yüklər Yuxarı Lars keçid məntəqəsində ilişib qalıb. Erməni hökuməti üçün ciddi başağrısına çevrilən Lars düyününün yaranma səbəbi Kremlin İrəvana xəbərdarlığı kimi də başa düşülür. Nikol Paşinyan hökuməti 3400 yük maşınının sərhəd-buraxılış məntəqəsində həftələrdir növbə gözləməsini əlverişsiz hava şəraiti ilə əlaqələndirsə də, məsələnin siyasi tərəfləri də var.

## LARS DÜYÜNÜNÜ YARADAN SƏBƏBLƏR

Erməni baş nazir Nikol Paşinyanın Belarusda keçirilən KTMT sammitində iştirakdan imtina etməsi ilə Yuxarı Larsın bağlanması eyni vaxta təsadüf edib. Bundan əlavə, 24 noyabr tarixində hökumət başçısı vətəndaşların suallarını cavablandırarkən qeyd edib ki, Ermənistanda yayımlanan Rusiya telekanalları qanun pozuntusuna yol verdikləri üçün yayım dayandırılır və qarşı tərəflə məsləhətləşmələr keçiriləcək. Bundan əlavə, ölkəyə rus dilində kitabların gətirilməsinin də qarşısı alınır. Eyni zamanda "Armbrok" erməni broker şirkəti rus müştərilərin hesabını bağlamaq barədə qərar qəbul edib. Bütün bu hərəkətlər Kremlin səbrinin daşmasına səbəb olub və rəsmi Moskva hərəkətə keçməyə qərar verib.

Rusiya siyasi elitasının "yolunu azan" Ermənistana mesajını çatdırmaq üçün müxtəlif rıçaqlardan istifadə etməsi ilk hal deyil. Bu dəfə isə keçidin bağlanma səbəbi kimi "Rosselxoznadzor" tərəfindən bitkiçilik məhsullarının tədarükü zamanı pozuntuların baş verməsi göstərilib. Qurum Ermənistandan gələn gül və meyvə-tərəvəz məhsullarında karantin tətbiq olunan zərərvericilərin aşkarlanması ilə bağlı 72 fakt müəyyən edib. Eyni zamanda, noyabr ayında qanun pozuntularında kəskin artım qeydə alınıb - təkcə noyabrın 24-dən 26-dək Rusiyaya çirklənmiş gül, xiyar, quru meyvə, üzüm, gül kələm, pomidor, bibər, badımcan, alma idxal edilməsi ilə bağlı 36 fakt üzə çıxıb.

## ERMƏNİ TƏRƏFİNİN SƏRSƏM BƏYANATLARI

Ermənistan hökuməti isə siyasi motivləri etiraf etmək istəmir. Baş nazir aparatının rəhbəri Arayik Arutyunyan bəyan edib ki, Larsın bağlanmasının heç bir iqtisadi təsiri yoxdur və yeni bazarlar tapmaq mümkündür. O, diaspor və Ermənistan ermənilərini yerli istehsal olan məhsulları almağa səsləyib və bununla da problemin həll olunacağını qeyd edib.

Erməni spiker Alen Simonyan da keçid məntəqəsinin bağlanmasında siyasi motiv görmədiyini bəyan edib. "Karqo Ekspress" şirkətinin direktoru Artur Qabeşyan bildirib ki, hərəkətin dayanmasına səbəb hava şəraitidir.



Arayik Arutyunyan

## ERMƏNİSTANIN XAM XƏYALI

Paşinyan hökumətinin yarıtmaz siyasəti Kremlin qəzəb oxlarını üzərinə çəkib. Erməni siyasətçilər Rusiyadan vaz keçərək yeni bazarlara, xüsusən də Avropa bazarlarına ümid edirlər. Amma Avrasiya İqtisadi İttifaqı Ermənistanda istehsal edilən məhsulların istehlak edildiyi yeganə bazardır. Avropa bazarları isə yaxın illərdə belə, erməni istehsalçılar üçün əlçatmaz arzu kimi qalacaq. Çünki Qərb standartlarına uyğunlaşma, lazımi sertifikatları əldə etmək erməni fermer və istehsalçılar üçün əlçatmaz görünür. Avropaya kənd təsərrüfatı malı ixrac etmək üçün otlaq sahəsinin tərkibi, suvarma sistemi, suyun tərkibi və digər xırda detallarla bağlı sertifikatlar təqdim etmək lazımdır.

## PAŞİNYAN KOMANDASI BOYUN ƏYİR?

Amma ümumilikdə Larsda yaranmış problemlər Ermənistan hökumətinin nümayəndələrini "yumşaldıb". Alen Simonyan qeyd edib ki, Nikol Paşinyan Avrasiya İqtisadi İttifaqının (AİI) Sankt-Peterburq şəhərində keçiriləcək sammitində iştirak etməlidir. Çünki siyasi kulislərdə dərk edirlər ki, AİI sıralarını tərk etmək dövlət üçün faciə ilə nəticələnə bilər. Məsələn, əgər rəsmi İrəvan alyansı tərk etsə, dünya bazarı qiymətinə qaz almaq məcburiyyəti ilə üzləşə bilər. Bu isə istehsal olunan məhsulların dəyərinə ciddi təsir edəcək. Bundan əlavə, Ermənistanın Rusiyadan aldığı bir sıra vacib məhsulların (məsələn, daş buğda) qıtlığı ilə üzləşməsi də ciddi problemlər yarada bilər.

## AĞILSIZ SİYASİ KURS

Erməni siyasətçilər Avropadan gələn qonaqlarla görüşlərdə azad bazardan, iqtisadi inhisarların aradan qaldırılmasından ağızdolusu danışırlar. Amma bu danışıqlar hələlik Ermənistana xarici investisiya gətirmir. Çünki Ermənistan dövlətçiliyinin iqtisadi cəhətdən riskə atıldığı göz önündədir. Hər fürsət düşəndə Azərbaycanın müharibəyə hazırlaşması, sərhəddə toqquşmanın bu yaxınlarda baş verəcəyi barədə ağılsız açıqlama verərək Qərb havadarlarının çaldığı havaya oynayan Ermənistan hökuməti əslində ölkəyə cəlb olunacaq investisiyaları şübhə altına alır. Onsuz da son illər erməni hökuməti xarici əlaqələrdə etibarsız dövlət kimi tanınır. Müttəfiq və tərəfdaş ölkələrlə qeyri-stabil əlaqələrə malikdir. Belə dövlətə hansı Qərb iş adamı sərmayəsini etibar edə bilər? Şübhəsiz ki, suyu üfləyə-üfləyə içən Avropa şirkətləri belə bir ölkədə uzunmüddətli investisiya və kapital qoyuluşu etməyə maraqlı deyil. Bu səbəbdən də Ermənistanın uzun illər Rusiyanın boyunduruğu altında sürünəcəyinin şahidi olacağıq...

# Gürcü müxalifəti lider axtarışında



AZƏR NURİYEV

Gürcü müxalifəti həsəd aparılacaq vəziyyətdə deyil. Proseslər əvvəlki seçkilərdən öncəki dövrü xatırladır. Yenə də müxalifət sırasında ikitirəlik hökm sürür, iqtidar da bundan məharətlə istifadə edir.



Bir vaxtlar postsovet məkanında ən uğurlu dövlət, demokratiya modeli kimi qələmə verilən Gürcüstan bu gün mürəkkəb siyasi durumdadır. 20 il öncə baş verən "qızılgül inqilabı" ölkənin siyasi, iqtisadi həyatına və xarici siyasətinə köklü dəyişikliklər gətirdi. İnqilab və onun hakimiyyətə gətirdiyi şəxs – Mixail Saakaşvili yoxsul, təcrid olunmuş ölkə üçün yeni ümid çırağı idi. Lakin Saakaşvilinin hakimiyyətdən getdiyi 2012-ci ildən bəri ölkədə mürəkkəb siyasi vəziyyət hökm sürür. Ölkə nə vəd edilən Qərb strukturlarına (Avropa İttifaqı, NATO) üzv qəbul edilib, nə də torpaqları işğaldan azad olunub. Əksinə, torpaqlarında qondarma qurumlar yaradılıb və onlar Rusiya tərəfindən müstəqil dövlət kimi tanınıb. Hakim "Gürcü Arzusu" Partiyası 12 ilə yaxındır parlament, prezident və yerli seçkilərdən qalib çıxır. Bununla yanaşı, siyasi gərginlik qalmaqdadır. Prezidentlə hökumət arasında gərginlik məhkəmə səviyyəsinə yüksəlib. Hakimiyyət hələ ki, uğurla müxalifətin öhdəsindən gəlməyi bacarır. Əsas müxalifət partiyası - Vahid Milli Hərəkata gəldikdə, bu siyasi təşkilat çətin günlərini yaşayır.

### SAAKAŞVİLİNİN PARTİYASINDA QARŞIDURMA

Artıq neçə vaxtdır ki, həm iqtidaryönümlü, həm də müxalifət mediası əsas müxalifət partiyasındakı hay-küylü daxili ziddiyyətlərdən bəhs edir. Bu da hakim "Gürcü Arzusu" Partiyasına əl-qol açmağa, fəaliyyətini genişləndiməyə imkan verir. Bəziləri iddia edirlər ki, müxalifət razılığa gəlməsə, gələn il parlament seçkilərində iqtidarda olan partiya yenidən böyük fərqlə qalib gələcək. Məsələ ondadır ki, Vahid Milli Hərəkat növbəti parçalanma ilə üzləşib.

## "HƏLLEDİCİ SEÇKİ REJİMİ"

Sabiq prezident Mixail Saakaşviliyə tabe olmaqdan imtina edən keçmiş sədr Nika Melia partiya sıralarından xaric edilib. Müvafiq qərarı partiyanın hazırkı rəhbəri Levan Xabeişvili Formula TV kanalında canlı yayımda imzalayıb. Partiyanın bəyanatında deyildiyi kimi, təşkilat "həlledici seçki rejiminə" daxil olur və Melia da artıq onu təmsil etmir. Mühacirətdə olan siyasətçinin tərəfdarları Levan Xabeişvilinin hərəkətini biabırçılıq və qorxaqlıq hesab edirlər. Xüsusilə, bunu Melianın müttəfiqi Georgi Pataraya bəyan edir. "Yalnız Sovet İttifaqı dövründə bir adamı partiya yoldaşlarını tənqid etdiyinə görə qovmaq olardı. Melia uzun illərdir ki, müxalifətin qələbəsi, rifahı və uğuru üçün mübarizə aparır", - deyə müxalifətçi bildirib. Partiyanın digər nüfuzlu üzvü Georgi İmedaşvili isə sədr Levan Xabeişvilini istefaya çağırıb. "Bu, gürcü siyasətçilərinin indiyə qədər məruz qaldıqları ən biabırçı, təhqiredici və alçaldıcı hərəkətlərdən biri idi", - İmedaşvili bildirib. Eyni zamanda o vurğulayıb ki, Xabeişviliyə müraciət etmir, çünki onu müstəqil fiqur hesab etmir.






## KÖHNƏ VƏ YENİ SƏDRİN MÜBARİZƏSİ

Müxalifət partiyasının siyasi katibi, Gürcüstanın keçmiş müdafiə naziri Georgi Baramidze də Xabeişvilinin tənqidçiləri sırasına qoşulub. Onun sözlərinə görə, bütün fikir ayrılıqları daxili demokratik müzakirələr çərçivəsində həll edilməli idi. Eyni zamanda, Baramidze bildirib ki, o, Saakaşvilinin tərəfdarı olaraq qalır, lakin partiya rəhbərliyi onun da getməli olduğu qənaətinə gəlsə, gecikmədən bunu edəcək. Digər funksioner Ana Tsitlidze deyib ki, "Melia bir il ərzində partiyanı söyməklə məşğul idi. O, mövqeyi ilə özünü kənarlaşdırdı". Tina Bokuçava adlı partiya veteranı da hesab edir ki, eks-sədr tezliklə başqa siyasi qüvvəyə qoşulacaq. "Melia Saakaşvilinin təklifini rədd edəndə və birlik sənədini imzalamayanda qərarını verdi", - Bokuçava bildirib.

Xatırladaq ki, Saakaşvili Gürcüstana qayıdandan (2021-ci il) və həbs olunduqdan sonra partiyada keçmiş prezidenti nə dərəcədə fəal dəstəkləmək barədə qızğın müzakirələr başlayıb. O dövrdə partiyaya rəhbərlik edən Melia passivliyinə görə tənqid edildi və o, əksinə, Saakaşvilinin tərəfdaşlarını onu devirməyə cəhd etməkdə ittiham etdi. 2023-cü ilin yanvarında partiyada sədr seçkiləri keçirilib. Saakaşvilinin dəstəklədiyi Xabeişvili partiya yoldaşlarının 52,58%-nin səsini qazanıb, Melia isə cəmi 40%-lə kifayətlənib. Keçmiş sədr əvvəlcə məğlubiyyətini etiraf etsə də, tezliklə partiyadaxili müxalifətə keçərək Xabeişvilinin və onun bütün siyasi şurasının qeyri-legitim olduğunu bəyan edib.

### SAAKAŞVİLİ MANİFESTİ

Bu qarşıdurmaya son qoymaq üçün Saakaşvili yoldaşlarını partiya manifestini imzalamağa dəvət edib. Lakin Melia manifesti imzalamayıb.

Beləliklə, gürcü müxalifəti hazırda həsəd aparılacaq vəziyyətdə deyil. Proseslər əvvəlki seçkilərdən öncəki dövrü xatırladır. Yenə də müxalifət sırasında ikitirəlik hökm sürür, iqtidar da bundan məharətlə istifadə edir.

PEŞƏKAR Kaspi 9 DEKABR ŞƏNBƏ 2023 9

SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



ƏMƏK FƏALİYYƏTİNƏ LƏNKƏRANDA İDMAN MÜƏLLİMLİYİ İLƏ BAŞLAYIB HAZIRDA ABŞ-DƏ REJİSSORLUQ EDƏN HƏMYERLİMİZ

# "BAKIDA QALIB YALNIZ KOMEDİYA ÇƏKMƏYƏ DAVAM ETMƏK İSTƏMİRDİM"

**ABŞ-də yaşayan azərbaycanlı rejissor, prodüser Elmar Bayramov:** "Azərbaycanda döyüş, aksiyon səhnələri çəkmək daha rahatdır. ABŞ-də kino çəkilişi zamanı birinin dağdan aşağı düşməsinə xərclənən pulla Azərbaycanda üç kino çəkmək olar. Orada ilk səhvim öz hesabıma döyüş filmi çəkməyim idi".




İş həyatı Lənkəranda idman müəllimliyi ilə başlayıb, ABŞ-də rejissorluğa qədər davam edib. Azərbaycanda karyerasının zirvəsinə çatdığı və dörd film təklifi aldığı vaxtda, məşhurluqdan və yaxşı qazancdan imtina edərək, okeanın o tayında sıfırdan başlayıb.

Müsahibimiz ABŞ-da yaşayan azərbaycanlı rejissor, prodüser Elmar Bayramovdur.

Bakı Dövlət Universitetinin biblioqrafiya və informasiya fakültəsində təhsil alıb. "Azərbaycan Kapoeyra Federasıyası"nda müəllimlikdən federasiya prezidenti vəzifəsinə qədər yüksəlib. Həmçinin beynəlxalq idman yarışları, seminarların əsas təşkilatçılarından biri və baş rəqəmsal dizayneri vəzifəsində çalışıb. Azərbaycanda sosial çarxlar, sənədli filmlər çəkdikdən sonra 2017-ci ildən ABŞ-yə köçür və rejissorluq fəaliyyətinə orada davam edir. Burada "Ups" qısametrajlı filmi ilə "Ən yaxşı döyüş səhnəsi" kateqoriyasının qalibi olur.




## "BUNU HƏQİQƏTƏN DƏ AZƏRBAYCANLILAR ÇƏKİB"

**● Elmar bəy, tam fərqli fakültədə təhsil alıb, fərqli sahədə ixtisaslaşmısınız. Peşəkar idman mütəxəssisinin kino sevgisi necə yarandı?**

● Federasiyada məşqçi olsam da, standart müəllim olmaq istəmirdim. Çalışırdım ki, uşaqlara ictimai sferada lazım olan məlumatları verim. Məqsədim tək idmançı deyil, dünyagörüşlü tələbə yetişdirmək idi. Onlara elementar elmi kəşflərdən tutmuş, coğrafi məlumatlara qədər çox şeyi öyrətməyə çalışırdım. Ekologiyanın qorunması, nəqliyyatdan düzgün istifadə ilə bağlı məlumatlandırırdım. Lakin görürdüm ki, fikirlərimi 150-200 tələbəyə çatdıra bilirəm. Tələbələrimdən film istehsalının müxtəlif ixtisasları üzrə təhsil alanlar var idi. Sosial mövzularımı danışır, onlarla bu istiqamətlərdə müzakirələr aparırdıq. Daha sonra sosial çarxlar üçün hekayələr yazmağa başladım. Zamanla ağlımda tutduğum videoların istədiyim kimi çəkilməməsi məni narahat etdi. Bundan sonra özüm bu sahə ilə ciddi şəkildə maraqlandım.

**● İlk sosial video çarxınız "Ekoloji missiya" kifayət qədər səs-küy yarada bilmişdi**

● Onu hazırlayanda video çəkməyin dərinliklərini bilmirdim. Ümumi təşkilatçılıq təcrübəmdən istifadə edərək çəkməyə çalışdım. "Ekoloji missiya" da ilk sosial layihəmiz idi. Çarx İçərişəhərdə ətrafı təmizləyən yaşlı "xala" və zibilləyən insanlar haqqında idi. Anladım ki, ağlımda olan mesajı video vasitəsilə istədiyim kütləyə ötürə bilirəm. Bir müddət sonra bu sahədə tanınmağa, pul qazanmağa başladıq. İlk dəfə reklam çarxını çəkəndə sosial şəbəkələrdə "bunu həqiqətən də azərbaycanlılar çəkib" başlığı ilə yazılar paylaşılırdı.

## "BU, MƏNƏ PUL QAZANDIRA BİLƏRDİ, AMMA..."

**● Sevdiyiniz işdən pul qazanmağa başlayanda ABŞ-də davam etmək qərarına gəldiniz.**

● Döyüş, aksiyon, dram filmlərini çəkməkdən daha çox zövq alıram. Azərbaycanda isə maraq əsasən komediya janrınadır. "Don Marleone" filmimin təqdimatında dörd yeni təklif almışdım. Lakin bu layihələr reallaşmadı. Çünki Bakıda qalıb yalnız komediya çəkməyə davam etmək istəmirdim. Bu, mənə pul qazandıra bilərdi, amma reallaşmağını gözləyən ideyalarım var idi. Layihənin nə qədər uğurlu olmasının mənim üçün fərqi yoxdur. Əsas məqsədim ərsəyə gətirdiyim filmin sosial mesaj daşımasıdır. Məqsədim də rejissor kimi insanları yalnız güldürmək deyil, sosial mövzuları əhatə edən filmlərlə maarifləndirməkdir.

**● Yəqin ki, məqsədlərinizin ardınca getmək asan başa gəlməyib.**

● Əlbəttə. ABŞ-yə həyat yoldaşım Könüllə birlikdə gəldik. O, rəssamdır. İkimiz də bilirdik ki, Hollivud qucağını açıb bizi gözləmir. Sıfırdan başlayacağımızı da, çətinlikləri də gözə almışdıq. Bir müddət sonra özümüzlə gətirdiyimiz pul da artıq bitirdi və işləməli idik. Əvvəlcə Kaliforniya ştatında qaldıq. Qiymətlərin baha olduğunu görüb, bizim üçün ən uyğun ştat Corciyaya köçdük. Orada "narkotiklər insanı öldürür" adlı video işlədik. Yerli narkotiklə mübarizə idarəsi bu videodan tanıtımında istifadə edirdi. Daha sonra Texasa köçdük və telefon təmiri yerində üç ay yarım işlədim. Könül də artıq rəsmlərini sərgiyə çıxarıb satırdı. Beləliklə, ikimiz də qazanırdıq. Mən qazandığım pulla evi təmin edirdim, Könülün qazancı ilə isə filmlər üçün müxtəlif texnika, avadanlıqlar alırdıq. Kommersiya işlərinə davam edir, döyüş zallarına gedir, reklamlarını çəkirdim. İdman keçmişim var idi deyə, əlaqələrim ilk vaxtlar mənə kömək oldu.

## "BU, XƏYALIMA BELƏ GƏLMƏZDİ..."

**● Hətta "Black Garden Company" adlı şirkət də açmısınız...**

● Çətinliyimiz çox olsa da, həyat yoldaşımla əl-ələ verib öhdəsindən gəldik. Hazırda iki prodakşnla işləyirik. Qısametrajlı filmlərimiz kinofestivallarda uğurlar qazandı. Çox yaxşı geri dönüşlər əldə etdim. Arnold Schwarzeneggerin prodüseri Robert Goldman, Maykl Jey White, Alan Goldbergle, Don Dragon Wilson, Sintia Rotrokla tanış oldum. Bu insanlarla birlikdə film tədbirlərində iştirak edəcəyim, mükafat qazanacağım xəyalıma belə gəlməzdi. Ciddi əlaqələrim yarandı, işim yavaş-yavaş yoluna düşdü. Amma istədiyim səviyyəyə çatmağım üçün daha çox çalışmalıyıq.

**● ABŞ-də film çəkmək, ərsəyə gətirmək bahadır deyirsiniz. Məhz bu səbəbdən ilk filmlərinizdən qazancınız olmayıb. Maraqlıdır, ABŞ-də ilk film təcrübənizdə hansı səhvləri edirdiniz?**

● Bəli, ABŞ-də film çəkməklə bağlı elə çətin nüanslar, tələblər var ki, bunlar Azərbaycanda yoxdur. Məsələn, sən Azərbaycanda bir zavodun içində film üçün istehsal olunan silahlardan istifadə edərək, səhnəni rahat çəkə bilərsən. ABŞ-də bunu etmək üçün çəkiliş meydançasına bir neçə məsul insan dəvət edirsən, sənə rəy verirlər. Bütün aktrisalar, aktyorlar sığortalanmalıdır. Azərbaycanda döyüş, aksiyon səhnələri çəkmək daha rahatdır. Məsələn, biri dağdan düşür, digəri tullanır, işin də rahat gedir. ABŞ-də kino çəkilişi zamanı birinin dağdan aşağı düşməsinə xərclənən pulla Azərbaycanda üç kino çəkmək olar. İlk səhvim öz hesabıma döyüş filmi çəkməyim idi. Ən çətin layihələri icra etməyə çalışırdım. Təsəvvür edin, bir adam yıxılsa, əzilsə bunun məhkəmələri ilə baş edə bilməzsən. Azərbaycanda "qardaş, üzr istəyirəm, quzu kəsərəm, bağışla" deyə bilirsən, ABŞ-də heç kimə quzu kəsə bilməzsən. Hər şey qaydasına uyğun aparılmalıdır. ABŞ-də qaydalarla hərəkət etmədinsə, bir addım qabağa düşəndə, 10 addım geri düşəcəksən.

> *"Azərbaycanda "qardaş, üzr istəyirəm, quzu kəsərəm, bağışla" deyə bilirsən, ABŞ-də heç kimə quzu kəsə bilməzsən. Hər şey qaydasına uyğun aparılmalıdır. ABŞ-də qaydalarla hərəkət etmədinsə, bir addım qabağa düşəndə, 10 addım geri düşəcəksən."*

## "OSKAR QAZANMIŞ TƏŞKİLATA PROMO ÇƏKİRİK"

**● Bəs ABŞ-də film sənayesinin qayda-qanunlarını necə öyrəndiniz? Bunun təhsilini aldınızmı?**

● Bəli, onsuz mümkün deyildi. Onlayn kursa müraciət etdim və bir il hazırlaşdım. Müəllimim Janet Urban Hollivudda səs rejissorudur. Məhz bu kursdan sonra festivallara film çəkməyə başladım. Müəllimim iki dəfə "Emmy" mükafatını da qazanmışdı. Orada mənə kino çəkməyi öyrətmirdilər. Məhz film çəkməyi bacaran insanların bu sənayenin içinə necə düşəcəyi ilə bağlı yolları izah edirdilər. Bu yollardan biri setlərdə köməkçi kimi işləyib, yavaş-yavaş qalxmaqdır. Əvvəlcə festivallarda könüllü işlədim. Daha sonra milyonlarla büdcələri olan filmlərdə prodakşn assistent kimi işləyirdim. Zamanla bu yolların daha çox zaman tələb etdiyini müəyyən etdim. Qərara gəldim ki, pul qazanmağa fokuslanmalıyam və qazandığım pullarla film çəkib festivallarda iştirak etməliyəm.

**● Festivallardakı filmləriniz artıq ABŞ-də müəyyən nominasiyalarda qalib olmağa başladı. Məqsədlərinizə nail olmaq necə hissdir?**

● Bunu sadəcə istədiyimə nail olmaq üçün getdiyim yolun başlanğıcı kimi qiymətləndirirəm. Bunlar mənim üçün mütləq uğur deyil. Mütləq uğur hansısa layihə ilə Disneyin, Netflixin qapısını döyüb ssenarimi təklif edib, onlarla rahatlıqla əməkdaşlıq etməkdir. O halda biz artıq məqsədlərimizin böyük hissəsinin öhdəsindən gələcəyik. Hələ ki, o mərtəbələrdə irəliləyirəm. Bu gün təşkilatımızın potensialı çox yüksəkdir. Buna nümunə olaraq qeyd edə bilərəm ki, hazırda qrafik təsvir nominasiyasında "Oskar" qazanmış təşkilata promo çəkirik. Məqsədlərimə gedən yolda olduğumun fərqindəyəm.



## "HƏYAT YOLDAŞININ SƏNİ ANLAMASI ÇOX VACİBDİR"

**● Elmar bəy, hazırda festivallarda yarışan, ABŞ kinoteatrlarında nümayiş olunan, ən əsası, sizə ən yaxşı rejissor adını qazandıran" "Nəfəs" filmindən danışaq. Bu film necə ərsəyə gəldi?**

● Bu filmdə məqsədim az aktyorla işləmək və keyfiyyətli iş ortaya qoymaq idi. Real motivlər əsasında çəkilən filmdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində erməni hərbi birləşmələri tərəfindən əsir götürülən Bəxtiyarın həyatından bəhs edilir. Bəxtiyar travma sonrası stress pozğunluğu sindromundan əziyyət çəkir. Əsirlikdən azad olunduqdan sonra doğulduğu kəndə qayıdan Bəxtiyar məhbus həyatında aldığı travmalar ilə mübarizə aparır. Filmin həmmüəllifi Ülviyyə Heydərovadır. Onun yazı tərzini bəyənirdim və uzun danışıqlardan sonra hekayə formalaşdırdıq. Orada çox çətin səhnələr çəkdik. Amma burada da istədiyimizə nail olduq. "Nəfəs" Bakı Beynəlxalq qısametrajlı film festivalında "Ən yaxşı rejissor işi" nominasiyasında qalib oldu.

**● Kino dəryasının içində kifayət qədər çətinliklərdən keçərək məqsədiniz üçün irəliləyirsiniz. Geriyə dönüb baxdıqda nə düşünürsünüz?**

● Həmişə düşünmüşəm ki, həyat yoldaşım Könüllə evlənməsə idim, bu nəticələri əldə edə bilməzdim. O, mənə çox inanır və dəstəkləyir. Azərbaycanda istədiyim nəticəni əldə etdiyim vaxt hər şeydən imtina edib ABŞ-yə gəldim. Bir qadının sənə qoşulub gəlməmək haqqıdır. Bilə-bilə çətinliklərə doğru getmək, mənimlə birlikdə mübarizə aparmaq borcu deyildi. Həyat yoldaşının səni anlaması, yanında olması çox vacibdir. Könülün həyatımdakı rolu inanılmazdır. Hər anormal fikrimə "edək" deyib. Mən həmişə qəribə fikirlər səsləndirib yoxlamağa cəhd etmişəm. İstənilən insan həyatında, - istər kişi, istərsə də qadın, - bir-birinə dəstək olmağı bacarırsa, uğurlu olmaq ehtimalı yüksəkdir.



# SOCAR və Çin şirkəti arasında müzakirə

**Tərəflər bu ilin iyun ayında SOCAR ilə "China Energy International Group Co.Ltd" şirkəti arasında imzalanan əməkdaşlığa dair sazişin əhəmiyyətindən bəhs edib, görüləcək işlər və gələcək hədəfləri nəzərdən keçirib.**



Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf və "China Energy International Group Co. Ltd" şirkətinin prezidenti Qiao Xubin texniki və maliyyə cəhətdən rentabelli layihələrin reallaşdırılması imkanlarını müzakirə ediblər. "Report" bu barədə SOCAR-a istinadən xəbər verir.

Bildirilir ki, görüşdə Azərbaycanın "yaşıl enerji" potensialının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən layihələr, quruda və dənizdə külək enerjisi ilə bağlı potensial imkanlar, həmçinin SOCAR-ın korporativ strategiyası, bu xüsusda enerji keçidi, rəqəmsallaşma və innovasiya sahələrində görülən işlər barədə məlumat verilib. Eyni zamanda Çinin aparıcı beynəlxalq şirkətlərindən biri olan "China Energy International Group Co. Ltd" şirkətinin dünyanın müxtəlif ölkələrində "yaşıl enerji" və aşağı karbonlu enerji sahəsində çoxşaxəli fəaliyyət göstərdiyi qeyd olunub.

Tərəflər bu ilin iyun ayında SOCAR ilə "China Energy International Group Co.Ltd" şirkəti arasında imzalanan əməkdaşlığa dair sazişin əhəmiyyətindən bəhs edib, görüləcək işlər və gələcək hədəfləri nəzərdən keçirib, yaşıl hidrogen daxil olmaqla, bərpa olunan enerji mənbələrinin inkişafı, təcrübə mübadiləsinin təşkili, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## AzerTelecom şirkətinin rəhbərliyində yeni təyinat



Emil Məsimov

Emil Məsimov AzerTelecom şirkətinin Direktorlar şurasının sədri vəzifəsinə təyin edilib. Direktorlar şurasının sabiq sədri Fuad Allahverdiyev AzerTelecom şirkətindən, eləcə də NEQSOL Holding-dən noyabr ayında ayrılıb. Emil Məsimov 18 ildən artıqdır ki, telekommunikasiya sektorunda fəaliyyət göstərir. O, hazırda Azerconnect şirkətinin Baş direktoru olmaqla bərabər, informasiya və kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən bir neçə böyük şirkətin Müşahidə Şurasında təmsil olunur. Emil Məsimov biznesin idarə edilməsi üzrə İngiltərənin Mançester Universiteti və Harvard Biznes Məktəbinin məzunudur. AzerTelecom Azərbaycanın aparıcı telekommunikasiya şirkəti olmaqla, NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun Telekommunikasiya qrupuna daxildir. NEQSOL Holding on bir ölkədə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərir və 12.000-dən çox işçi heyətinə malikdir.

## CityNet-in əsas tərəfdaşlığı ilə GameSummit festivalı keçiriləcək




CityNet internet provayderi Azərbaycanda növbəti dəfə baş tutacaq kütləvi oyun festivalı olan GameSummit-in əsas tərəfdaşıdır. Dekabrın 9-da "Flame Towers, Fairmont Baku Hotel"də keçiriləcək GameSummit bu dəfə də ölkənin bütün oyun həvəskarları, kospleyerləri eləcə də gik mədəniyyəti və komiks sevən insanlarını bir araya toplayacaq. GameSummit Baku Winter Edition adı altında keçiriləcək bu festival həm onlayn, həm də oflayn formatda ən müxtəlif əyləncələr vasitəsilə oyun həvəsindən zövq almaq üçün möhtəşəm bir platforma olacaq. Festival zamanı maraqlı və fərqli simulyatorlar da daxil olmaqla, müxtəlif oyunlar üzrə turnirlər və çempionatlar keçiriləcək. Festival çərçivəsində CityNet adlı xüsusi arenada Azərbaycanın ən güclü kiberidman komandalarının iştirakı ilə keçiriləcək 'Fortnite', 'Valorant', 'CS2', 'Dota2', 'League of Legends' kimi oyunların çempionatlarının şou oyunları və final mərhələləri baş tutacaq. Həmçinin, keçmişin məşhur klassik hit oyunlarının atmosferini yenidən yaşadacaq retro və stolüstü oyun çempionatları da təşkil olunacaq. GameSummit festivalında ənənəvi olaraq bu dəfə də hər kəsin son virtual əyləncədən həzz ala biləcəyi, tamaşaçını ekran arxasındakı xəyali dünyaya aparan VR zonası ziyarətçilər üçün açıq olacaq. CityNet-in əsas tərəfdaşlığı ilə ölkəmizdə artıq ikinci dəfədir ki, keçiriləcək bu kütləvi tədbir hər bir iştirakçının maraqlı oyun dünyasına düşə biləcəyi, emosiyalar və unudulmaz sərgüzəştlər yaşaya biləcəyi bir festivala çevrilməyi hədəfləyib. Qeyd edək ki, CityNet bundan öncə iyun ayında bu festivalı əsas tərəfdaş qismində dəstəkləmişdi. CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytına keçid edərək və ya *1177 ilə əlaqə saxlayaraq əldə etmək mümkündür.




## Bakcell dünyanın ən sürətlilərinin sürət tərəfdaşı oldu!

Ölkənin ən sürətlisi Bakcell Bakının ilk dəfə ev sahibliyi etdiyi Beynəlxalq Avtomobil Federasiyası (FIA) Prize-Giving ceremony - Mükafatlandırma mərasiminin sürət tərəfdaşı oldu. FIA Mükafatlandırma mərasimi bir çox sürət yarışlarında qalib olan pilotların, avtomobil idmanı cəmiyyəti və azarkeşlərinin ən çox gözlədiyi tədbirlərdən biridir. Hər il fərqli ölkələrdə keçirilən tədbir bu il 5-8 dekabr tarixlərində paytaxt Bakıda baş tutur. Ənənəvi mərasimdə FIA çempionları ilə yanaşı, həmçinin karyeralarının başlanğıcında olan bacarıqlı yeni nəsil idmançılar və avtomobil idmanında misilsiz rolları olan şəxslər də yad edilir. Xatırladaq ki, sürət yarışlarına böyük maraq göstərən Bakcell 2019-cu ildən etibarən "Formula 1 Azərbaycan Qran Prisi"nin rəsmi dəstəkçisidir. Ölkənin dörd bir yanında "Ölkənin ən sürətlisi" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.


## "Nar"-dan "Dinlət" xidməti ilə tərzini paylaş

Hər zaman müştəriyönümlülük və sərfəli qiymət strategiyasına sadiq qalan "Nar" öz abunəçiləri üçün yenilənmiş "Dinlət" xidmətini təqdim edir. Bir zamanların ən çox istifadə edilən xidmətlərindən biri olan "Dinlət" yeni funksiyalarla təkmilləşdirilib. İndi "Nar" abunəçiləri ayda cəmi 1.8 AZN ödəniş etməklə "Dinlət" parçasını istənilən sayda aktivləşdirə biləcək. Xidmətə qoşulmaq üçün www.dinlet.az platformasındakı parçalardan istədiyinizi seçib *185*DinlətKodu#YES yığmaq kifayətdir. Qeyd edək ki, "Dinlət" xidmətinə qoşularaq sizə zəng edənlərə standart zəng səsi əvəzinə sevdiyiniz musiqi parçalarını, fərqli melodiyaları, əyləncəli replikaları və s. dinlədə biləcəksiniz. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

nar
Sənə zəng edənlərə tərzini Dinlət!
www.dinlet.az






# "TƏHSİL BÜTÜN QAPILARI AÇIR"

## Fərrux Rüstəmov: "Bu gün Azərbaycan valideyni məktəb üçün ən böyük problemdir. Hamı məktəbin üstünə düşür. Məktəb günahkar hesab edilir, məktəb söyülür...".

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə "Kaspi" qəzetinin reallaşdırdığı "Məktəbdə" layihəsinin növbəti qonağı pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov idi. Professor şəxsi təcrübələri əsasında maraqlı nümunələrlə şagirdləri düşündürən suallara aydınlıq gətirdi, əhəmiyyətli mövzularla bağlı məktəblilərlə fikir mübadiləsi apardı. Paytaxtdakı 258 nömrəli orta məktəbdə reallaşan görüşdə elmi və pedaqoji fəaliyyəti ilə bağlı məktəb-lilərə məlumat verən qonaq söhbətini Qərbi Azərbaycan torpaqlarına qayıdışla davam etdirdi: "Dövlətimizin xarici siyasətinin əsas prioritet-lərindən biri Qərbi Azərbaycana qayıdışdır. O torpaqlar bizə babalarımızdan qalıb. İndi biz o torpaqlara qayıtmalıyıq. Qərbi Azərbaycanın təhsil və mədəniyyət mühiti Azərbaycana böyük ziyalılar bəxş edib. Biz necə ki "Qarabağ bizimdir, bizim olacaq" - deyib əzəli torpaqlarımıza qayıtdıq, eləcə də Qərbi Azərbaycana qayıdacağıq".




### "MƏKTƏB TƏKCƏ ÖYRƏNMƏK YERİ DEYİL"

Professor şagirdlərin formalaşmasında məktəbin roluna da toxundu: "İndi proqramlar ağırdır. Şagirdlər dərsdən sonra repetitor yanına tələsirlər. Sosial şəbəkələrdən asılılıq yaranıb. Məktəb təkcə öyrənmək yeri deyil. Mək-təbdə insan ruhu, şəxsiyyəti formalaşır. Bunlar repetitor yanında yoxdur. Biz indi daha çox intellektə fikir veririk. Amma bizə insan lazımdır. Çalışmalıyıq ki, ilk növbədə yaxşı insan olaq, sonra intellektli mühəndis də, alim də, həkim də olmaq olar. Məktəbin funksiyası da insan yetişdirməkdir. Biz nə üçün yaxşı oxumalıyıq? Artıq müharibə mərhələsini keçdik. İndi biz ermənilərlə, dünya ermənizmi ilə öz elmimizlə, təfəkkürümüzlə mübarizə aparmalıyıq. Biz indi Nobel mükafatı qazanan alimlər yetişdirməliyik".

Qonaq şagirdlərə çoxlu mütaliə etməyi tövsiyə etdi.

Şagirdlərdən biri: "Sizin oxuduğunuz illərdəki uşaqlarla indiki məktəblilərin həyatı arasında hansı fərqlər var?" - deyə qonağa sual ünvanladı: "Mən kənd məktəbini bitirmişəm. O zaman məktəb məbəd idi. Polis rəisi də, rayon rəhbəri də, kolxoz sədri də məktəbin qapısını döyməmiş içəri daxil ola bilməzdi. Hamı məktəbə ibadətgah kimi baxırdı. Bu gün Azərbaycan valideyni məktəb üçün ən böyük problemdir. Hamı məktəbin üstünə düşür. Məktəb günahkar hesab edilir, məktəb söyülür...".

## BU GÜN HAMI MƏKTƏBİN ÜSTÜNƏ DÜŞÜR

Professor son illər müəllim nüfuzunun aşağı düşməsini də narahatlıqla dilə gətirdi: "Müəllim milləti qaranlıqdan işığa çıxaran insandır. O zaman kənddə iki-üç nəfər yaxşı yaşayırdısa, onlardan biri müəllim idi. Müəllimə böyük hörmət qoyulurdu. İndi də müəllimə dövlətin dəstəyi var. Cənab Prezident dedi ki, mənim dövrümdə məktəbə gələn uşaqlar yetişdilər və Qarabağı aldılar. Biz buna görə məktəbə, müəllimə borcluyuq. Bu gün məktəbin bazası, strukturu əvvəlkindən qat-qat yüksəkdir. Valideyn-məktəb münasibətləri düzəlsə, yaxşı bir məktəb modeli qura bilərik".

### ELƏ İXTİSASLAR SEÇMƏLİSİNİZ Kİ...

"Dünya sürətlə inkişaf edir. Biz yeniyetmələr müasir dünya ilə ayaqlaşmaq üçün nə etməliyik?" - deyə soruşan şagirdə professor "yaşlı nəsil gənc nəsildən həmişə narazı olub", - deyə cavab verdi: "Sokrat "bu necə zəmanədir?" - deyə narazılığını ifadə edib. Biz Ana dilimizlə yanaşı, bir-iki xarici dil də öyrənməliyik. Hər kəs öz mədəniyyətini, tarixini bilməlidir. Müasir kommunikasiya sisteminə yiyələnməlisiniz. İxtisas seçiminə düzgün etməlisiniz. "Avropaya hansı ixtisasla gedəcəyəm?" sualı sizi düşündürməlidir. Dünyanın əmək bazarında lazım olan ixtisaslara üstünlük verməlisiniz. Bunun üçün rasional, məntiqi düşüncəyə sahib olmalısınız".




Fotolar:
Sabir Məmmədov/ Global Media Group




## "SİZ DƏ BU SİLAHDAN İSTİFADƏ EDİN"

"Böyük elmi kəşflər savadla bağlıdır, ya gendən gəlir", - deyə soruşan şagirdə professor Nobel mükafatçısı Əziz Sancarı nümunə gətirdi: "Əziz Sancar aldığı nişanı Atatürk muzeyinə bağışladı. "Ata, bu sizə çatmalıdır, məni ora siz göndərmişdiniz", dedi. Qazanılan uğurlarda istedad cəmi bir faiz rol oynayır, qalanı 99 faiz zəhmətdən asılıdır. Zəhmət çəkmədən heç nəyə nail ola bilməzsiniz. Böyük alimlərin tərcümeyi-halını oxuyun. Əksəriyyəti heç yemək tapmayıblar. Millətin yeganə nicatının maariflənmə olduğunu bilib böyük əziyyətlərə qatlaşıblar. Təhsil bütün qapıları açır. Afrikanın böyük siyasətçisi Nelson Mandela "Dünyada təhsildən güclü silah yoxdur", - deyirdi. Siz də bu silahdan istifadə edin".

### "REPETİTORLUĞU MƏKTƏBƏ GƏTİRMƏLİYİK"

"Təhsilin gələcəyini necə görürsünüz?"- deyə məktəbin müəllimlərindən biri sual ünvanladı: "Bu, hamımızı narahat edən sualdır", - deyə professor cavab verdi: "Təhsil kütləvi sahədir. Müəllimlik də kütləvi peşədir. Bu gün Azərbaycan təhsilində sürətli inteqrasiya baş verir. Xaricdən kifayət qədər ideyalar idxal etmişik. Fikrimcə, daha ehtiyac yoxdur. İndi o təcrübələri təhlil edib ona uyğun milli konsepsiya formalaşdırmalıyıq. Məktəbdə təmayülləşmə olmalıdır. Repetitorluğu məktəbə gətirməliyik. Hamı hər şeyi bilə bilməz. Ona görə 10-11-ci siniflər üzrə təmayül sinifləri yaradılmalıdır. Şagirdlər peşə məktəblərinə də yönəldilməlidir. Ali təhsil almadan da yaxşı peşələrə yiyələnmək olar. Valideynlər bunu dərk eləsələr, övladlarını düzgün istiqamətləndirə bilərlər".

F.Rüstəmov Azərbaycan təhsilinin gələcəyindən naümid olmadığını da bildirdi: "Mən təhsilimizin gələcəyinə inanıram. Bu gün parlaq Azərbaycan gəncliyi yetişib. Gənclərimiz bizdən çox bacarıqlıdırlar".

QIZILCA - PEYVƏNDDƏN KÜTLƏVİ İMTİNANIN MƏNFİ TƏZAHÜRÜ KİMİ

# PEYVƏND ƏLEYHİNƏ TƏBLİĞATIN NƏTİCƏSİ



Həkimlər israrla qızılcadan xilas olmağın yeganə yolunun peyvənd olduğunu vurğulasalar da, xeyli müddətdir ki, ölkədə peyvənd əleyhinə kampaniya aparılır. Hətta tanınmış şəxslər, TV aparıcıları da bu kampaniyaya qoşulurlar.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ölkədə qızılca sürətlə yayılır. Artıq məktəblərdə müəyyən siniflər bağlanır, davam edəcəyi təqdirdə distant təhsilə keçmək planlaşdırılır. İş o həddə çatıb ki, rəsmilər israrla peyvəndlə bağlı valideynlərə çağırış edirlər. Lakin peyvəndə hazırkı münasibət bir az fərqlidir. Təcrübə üçün sosial şəbəkələrdə, xüsusilə, qadın qruplarında "qızılcadan qorunmaq üçün nə etməliyik", - deyə sual ünvanlayıb, məsləhət alsanız, "rayona zəng edin, sizə eşşək südü tapıb göndərsinlər, sağalacaq", "Qızılca təhlükəli deyil, sadəcə, şişirdirlər, qırmızı yorğan-döşəkdə yatırdın, keçib-gedəcək", "hamısını peyvəndə görə edirlər, böyüklərdən uşaqlara keçiblər. Uşağın qidasına diqqət etdikdə, peyvəndə ehtiyac yoxdur" kimi cavablarla rastlaşacaqsınız. 20 anadan yalnız bir-ikisi sizə qızılcaya yoluxmamaq üçün peyvəndi məsləhət görə bilər. Əksər valideynlər peyvənd əleyhdarlarıdır və təəssüf ki, bunu təbliğ edirlər. Üstəlik, peyvəndi məsləhət görənləri də cahil adlandırır, fikrindən yayındırmağa çalışırlar. Həkimlər, pediatrlar qızılcadan xilas olmağın yeganə yolunun peyvənd olduğunu vurğulasalar da, xeyli müddətdir ki, ölkədə peyvənd əleyhinə kampaniya aparılır. Hətta tanınmış şəxslər, TV aparıcıları da bu kampaniyaya qoşulurlar. Nəticədə, bu gün qızılca nəzarətdən çıxmaq üzrədir.

Bəs bu təbliğatın təhlükəsi nədir? Nə üçün valideyn eşşək südünü peyvənddən önəmli hesab edir, peyvənd etməyəni də buna inandırır?

### "HƏKİM LAZIMDIR DEYİRDİSƏ, DEMƏLİ, LAZIMDIR"

Pediatr Aytən İsmayılzadə "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, əvvəllər hamı peyvənd olunduğu üçün müəyyən xəstəliklərin kökü kəsilmişdi. Çünki valideynlər həkimin sözündən çıxmırdı: "Həkim "lazımdır" deyirdisə, deməli, lazımdır. Xeyli illər əvvəl kimsə göy öskürək tutanda hamı təəccüblənirdi və qınayırdı ki, axı niyə peyvənd olunmayıb? İndi uşaqların əksəriyyətində göy öskürək, qızılca yayılıb. Biz peyvəndlə rahatlıqla qalib gələ biləcəyimiz xəstəliklərlə mübarizə aparırıq".



Aytən İsmayılzadə



## "MÜBARİZƏ BİR-İKİ MƏLUMATSIZ İNSANIN ÖHDƏSİNƏ BURAXILMAMALIDIR"

Həkim vurğulayır ki, qızılca o qədər ciddi məsələdir ki, onunla mübarizə bir-iki məlumatsız insanın öhdəsinə buraxılmamalıdır: "Bu gün valideynlər rahatlıqla "mən peyvənd istəmirəm" deyə bilir. Üstəlik, peyvənddən imtina edən valideyn təbliğat aparmağa başlayır, absurd arqumentlər ortaya qoyur. Təbliğat öz işini görür və nəticədə xəstəlik tüğyan edir. Üstəlik, tək valideynlər deyil, göz önündə olan insanların da efirlərdən bu cahilliyi təbliğ etməsi çox dəhşətlidir. Əhali düşünür ki, ali savadlı insan bunu edirsə, televiziya da efirə verirsə, deməli, belə də olmalıdır. Buna görə də həkimlərin sözlərinə etimad edilmir".

### "PEYVƏND OLMAYAN UŞAQLAR KOLLEKTİVƏ BURAXILMAMALIDIR"

Həkimin sözlərinə görə, səhiyyə sistemi uşaqları, gələcəyi, genefondu qorumalıdır: "Uşaqları həyati təhlükə yaradan infeksiyalardan qorumaq üçün güclü nəzarət olmalıdır. Əgər bu gün könüllülük səbəbindən bu vəziyyətdəyiksə, deməli, qanuna dəyişiklik olmalıdır və peyvənd məcburiyyətə çevrilməlidir. Yəni peyvənd olmayan uşaqlar bağçaya, kollektivə buraxılmamalıdırlar. Belə olsa, hamı peyvənd edəcək".

Həkim peyvəndi təhlükəsizlik kəmərinə bənzədir və bildirir ki, əhalinin 95 faizi peyvənd olunarsa, xəstəlik ayaq tutub yeriməyəcək: "İnsanlar könüllü şəkildə poliklinikalara üz tutmurlar. Poliklinikalar dəfələrlə çağırır, valideyn gəlmir. İnsan qorxmasa, heç bir qanuna tabe olmur. Təhlükəsizlik kəməri üçün necə cərimə tətbiq olunursa, bu da insan sağlamlığı üçündür, buna da cərimə tətbiq olunmalıdır. Bizdə difteriya yayılsa, nəticəsi daha dəhşətli olacaq. Çünki uşaqların əksəriyyətinin AKDS peyvəndi yoxdur. Hələ qızılcanı AKDS-ə nisbətən çox adam vurdurur. İndi görün difteriya ilə bağlı vəziyyət necədir? Hər ölən, fəsad qazanan uşağın günahı anti-peyvənd təbliğatçılarının boynuna yazılır. Ölkədə qızılcadan ölən uşaqların ölümünün səbəbkarlarından biri də elə bu təbliğatçılardır".

## PEYVƏNDDƏN İMTİNAYA GÖRƏ HÜQUQİ MƏSULİYYƏT VARMI?

Məlumdur ki, tanınmış insanların fikrinə daha çox etimad edilir. Bəs belə şəxslər anti-peyvənd təbliğatı apardıqda hüquqi məsuliyyət daşıyırlarmı?

Hüquqşünas Roman Qaraşov deyir ki, bütün qanunvericilik aktları insan sağlamlığını daim ön plana çəkir: "Yoluxucu xəstəliklərin ölkə ərazisində geniş yayılması, əhalinin sağlamlığı baxımından olduqca risklidir. Bu baxımdan hansısa tanınmış şəxsin müvafiq qurumlar tərəfindən təsdiq olunmuş, ekspertizalardan keçirilmiş vaksinlərlə bağlı anti-çağırışlar etməsi əsassızdır. Tibbi cəhətdən təsdiq olunmuş arqumentləri yoxdursa, belə fikirlərin səsləndirilməsi insanların səhv yönləndirilməsi ilə nəticələnir".

Hüquqşünas vurğulayır ki, cəmiyyətin etibar etdiyi insanların arqumentsiz yönləndirmələri və çıxışları ilə bağlı qabaqlayıcı tədbirlər görülməlidir: "COVID-lə mübarizədə vaksinlərdən istifadə könüllü xarakter daşıyırdı. Amma müəyyən yerlərə daxil olduqda, ölkə sərhədini keçdikdə əsas tələb peyvənd sənədi idi. Bu, tam düzgün addım idi. İnsanlar əgər digərlərinin həyatını riskə atırsa, bu halda onun azadlığından və ya hüququndan söhbət gedə bilməz. Əgər kimsə bu cür çıxışlar edirsə, cəmiyyətin sağlamlığını deyil, şəxsi mənafeyini düşünürsə, bununla bağlı tədbir görülməlidir".

Məlumat üçün bildirək ki, qərbdə peyvənd əleyhinə çıxışlar 1997-ci ildə başlayıb. İngilis cərrah Andrew Wakefield "Lencet" jurnalında çap etdirdiyi elmi məqalədə KKK peyvəndinin uşaqlarda autizm yaratdığını qeyd edib. 1997-ci ildən etibarən Wakefieldin iddiaları əsasında bir çox elmi araşdırmalar aparılıb və bu nəzəriyyə qəti şəkildə yalanlanıb. Hətta "Lancet" jurnalı həmin məqaləni yayından qaldırıb, müəllifin həkimliyi əlindən alınıb. Azərbaycanda da peyvənd əleyhdarları Wakefieldin məqaləsinə istinad edirlər. Amma autizmlə peyvənd arasında hər hansı əlaqənin olmadığını heç kim görmür, oxumur.




Roman Qaraşov

Foto: Rüfət Mikayılov/Global Media Group

GÜNDƏLİK TƏLƏBATDAN BİR MİLYON ƏDƏD ARTIQ YUMURTA İSTEHSAL OLUNUR

# YUMURTANIN QİYMƏTİ ARTACAQMI?

Rusiya hazırda bizim beş quşçuluq müəssisəmizi reyestrdən keçirib və sənədləşdirib. Bu da o deməkdir ki, yaxın günlərdə Rusiyaya da yumurta ixrac etməyə başlayacağıq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Yaxın günlərdə Azərbaycandan Rusiyaya quşçuluq məhsullarının, xüsusilə də ərzaqlıq yumurtanın ixrac olunmasına başlanılacaq. Səbəb bu ölkədə yumurta qıtlığıdır ki, nəticədə quş əti və yumurtanın qiyməti bahalaşıb. Ölkədə qiymət artımının qarşısının alınması üçün idxalın artırılması tapşırılıb. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidməti ("Rosselxoznadzor") arasında əldə edilmiş razılaşmaya görə, Azərbaycandan Rusiyaya yumurta ixrac olunacaq. Bu yeni qərarın Azərbaycanın yumurta bazarı üçün mənfi və müsbət tərəfləri nələrdir?

**ÜÇ MİLYON TƏLƏBATDIR, DÖRD MİLYON İSTEHSAL**

"Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyinin sədri Mürvət Həsənli dedi ki, hazırda bizim günlük yumurta istehsalımız 4,6-4,9 milyon ədəddir: "Onun 3,2-3,6 milyon ədədi gündəlik tələbat üçündür. Bir milyonun üzərində yumurta artıq qalır. Bu zamana qədər yumurtanı Yaxın Şərq ölkələrinə ixrac edirdik. Oktyabr ayının əvvəlinə olan məlumata görə, Yaxın Şərq ölkələrinə 40 milyon ədəddən çox süfrə yumurtası göndərmişik".

M.Həsənli bildirdi ki, Rusiyaya ixrac üçün hazırlıqlar görülür: "Rusiya hazırda bizim beş quşçuluq müəssisəmizi reyestrdən keçirib və sənədləşdirib. Bu da o deməkdir ki, yaxın günlərdə Rusiyaya da yumurta ixrac etməyə başlayacağıq. Ehtimal edirik ki, Rusiyaya günlük 360 min ədəd civarında süfrə yumurtası göndərəcəyik. Qalan tələbatı ödəmək üçün də müəssisələrimiz böyüyür. İnkişaf etdikcə Rusiyanın tələbatının müəyyən qismini ödəyə biləcəyik".


Mürvət Həsənli

**Süfrə yumurtasının ixracının illər üzrə müxtəlif göstəriciləri.**

| | |
|---|---|
| 2018-ci il | 44 mln |
| 2019-cu il | 35 mln |
| 2022-ci il | 12 mln |

## İSTEHSAL DAHA DA ARTACAQ

Sədrin fikrincə, Azərbaycan quşçuları həm Rusiyanı, həm də özümüzü süfrə yumurtası ilə təmin edə biləcəklər: "Hazırda ölkəmizin yumurtaya olan tələbatından 130 faiz çox məhsul istehsal edirik. Düşünürəm ki, yaxın altı ay müddətində istehsalımız 170 faiz olacaq. Beləliklə, bizim gündəlik artıq yumurtamız üç milyon ədəddən çox olacaq. Bu, aylıq 90-120 milyon süfrə yumurtası deməkdir".

Müsahibimizin sözlərinə görə, Rusiya ilə əldə edilən anlaşma həm müəssisələrimiz, həm də ölkəmiz üçün faydalıdır: "İstənilən halda bu addımdan gəlir əldə edəcəyik. Ölkəmiz üçün bir faydası da budur ki, yumurta sahəsində Rusiya kimi bazarımız yaranmış olur. Rusiya bazarına çıxış imkanından sonra həmin istehsal müəssisələrində işləyən işçilərin sayı da artacaq. Ölkəmizə əlavə valyuta gələcək".

**YUMURTANIN QİYMƏTİ QALXMAYACAQ**

M.Həsənli qeyd etdi ki, hazırda yumurta qiymətlərinin yüksəlməsi üçün ciddi əsas yoxdur: "Düşünmürəm ki, bu addım daxili bazarda süfrə yumurtasının qiymətinin artmasına səbəb olsun. Çünki yumurtanın qiymətinin qalxması toyuğun yediyi yemdən asılıdır. Nə qədər ki, yemin qiyməti aşağı olacaq, o zamana qədər yumurta qiymətlərində artım gözlənilmir".

## YUMURTA İXRACIMIZIN İLLƏR ÜZRƏ STATİSTİK GÖSTƏRİCİLƏRİ

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə bildirdi ki, quş əti və yumurta istehsalında illər üzrə artım mövcuddur: "Azərbaycanda 2022-ci ildə iki milyard ədəd süfrə yumurtası istehsal olunub. Onun təqribən 900 milyonunu sənaye üsulu ilə quşçuluq müəssisələri istehsal edib. O cümlədən, bu ilin doqquz ayı ərzində 1,7 milyard yumurta istehsalı həyata keçirilib. Onun 760 milyonu sənaye quşçuluq müəssisələri tərəfindən istehsal edilib".

F.Fikrətzadənin sözlərinə görə, süfrə yumurtası ixracımız illər üzrə müxtəlif göstəricilərə malik olub: "Məsələn, 2018-ci ildə 44 milyon ədəd yumurta ixrac etmişdik. Bu rəqəm 2019-cu ildə 35 milyon, 2022-ci ildə isə 12 milyon ədəddir. Amma nəzərə alaq ki, bu sahədə ixrac bizdə yeni yaranıb. Bu, quşçuluq müəssisələrinin potensialı hesabına baş verib".

Müsahibimiz düşünür ki, yeni anlaşmadan sonra yerli bazar üçün ciddi bir təhlükə yoxdur: "Rusiyanın quş əti idxalında bazar tələbatı artıb. Bizim müəssisələrdən bu sahədə istifadə edilməsi olduqca məqsədəuyğun addımdır. Bizim 35-45 milyonluq yumurta ixracı göstəricilərimizin bir o qədər də artırılması gözlənilir. Amma bunun daxili bazara heç bir mənfi təsiri olmayacaq. Bizdə əvvəllər də yumurta ixracı təcrübəsi mövcud idi. İxrac varsa, demək, daxili bazarın tələbatından artıq yumurta istehsal edə bilirik. Bizim quşçuluq müəssisələrinin istehsal potensialı yerli tələbatımızın ehtiyacından üstündür. Ona görə də, bu potensialdan istifadə edərək ixracı artırmağın daxili bazara hər hansı bir mənfi təsiri olmayacaq".


Firdovsi Fikrətzadə

# MÜQƏDDƏS kilsələr, Vezuvi və Maradona




Neapol digər italyan şəhərlərindən fərqlidir: daha qaynar və səmimidir. Burada insanlar hay-küy salır, söyüş söyür, mübahisə edir, barışır, mahnı oxuyur, rəqs edirlər. Şəhəri fərqləndirən digər əlamət Maradonaya olan sevgidir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İtaliyanın cənubu ilə şimalı arasındakı fərqlər italyanlar üçün başağrısı olsa da, bunu müzakirə etməyi sevirlər. Hər iki bölgəyə səyahət edən təcrübəli turistlər də həmin fərqləri dərhal müşahidə edirlər. Məsələn, Puglia bölgəsində Cənubi İtaliyanın iqtisadi cəhətdən əhəmiyyətli dərəcədə yoxsul olmasını sakinlərinin daha tənbəl, daha rahat və işləməyə daha az meylli olması ilə əlaqələndirir, "Bəli, onlar süstdürlər", - deyirlər. Cənublulardan niyə işləməkdən imtina etdiklərini soruşanda isə cavab verirlər ki, avtobus dayanacağı evdən uzaqdır, ya da təhsilləri adekvat deyil. Onlar müavinətlə yaşamağa davam edirlər. Cənubdakı yoxsulluğu ənənəvi cənub həyat tərzi səbəbləri ilə yanaşı, son illər Aralıq dənizi ilə gələn miqrantların bu bölgədə daha çox məskən salması ilə də əlaqələndirirlər. Onlar yaşamaq üçün daha çox Kampaniya bölgəsinin paytaxtı Neapolu seçirlər. Bununla belə, Cənubi İtaliya ölkənin ruhudur. Əsl italyan tərzini bütün çılpaqlığı ilə duymaq, ölkə haqqında təsəvvür formalaşdırmaq üçün bu bölgəyə səyahət etmək yetər...

Cənublular iddia edirlər: güclü təəssüratlar istəyənlər bu şəhərə səyahət edir.

## EVSİZLƏR, DİLƏNÇİLƏR, MÜXTƏLİF MİLLƏTLƏRDƏN OLANLAR

Hotelimiz dəmiryolu vağzalının yaxınlığında yerləşdiyi üçün dərhal Neapolitan incəlikləri ilə üz-üzə gəlməli olduq. Pizzeriyada işləyən ofisiant qız turist olduğumuzu bilincə xəbərdarlıq etdi: şəhərdə gəzərkən pul, sənədlər və qiymətli hər şeyi gizlətmək lazımdır: "Burada dünyanın hər yerindən cürbəcür adamlar var. Evsizlər, dilənçilər, müxtəlif millətlərdən olan və naməlum peşə sahibləri".

Qədim şəhərin küçələrini gəzdikcə müşahidə edirik: Neapol digər italyan şəhərlərindən fərqlidir: daha qaynar və səmimidir. Burada insanlar hay-küy salır, söyüş söyür, mübahisə edir, barışır, mahnı oxuyur, rəqs edirlər. Bir neçə il əvvəl şəhərdə rəsmi olaraq zibil böhranı elan edilmişdi. Problem bu gün də aktualdır. Məşhur Vezuvi vulkanı, güclü, emosional italyanlar, xaotik tıxac, dadlı yeməklər və böyük porsiyalar, zibilli küçələr və "Napoli" klubuna, əfsanəvi Maradonaya olan sevgi - bu şəhəri səciyyələndirən əsas xüsusiyyətlərdir. Neapol körfəzinin və Avropada yeganə aktiv vulkan olan Vezuvinin mənzərələri turistlərin çox xoşuna gəlir.

Neapol İtaliyanın ən çirkli və ən kriminal şəhəri kimi də tanınır. Amma eyni zamanda barokko kilsələri, dəbdəbəli sarayları və unikal muzeyləri ilə ölkənin ən gözəl şəhərlərindən biridir. Əslində, Neapol paradoksların və ziddiyyətlərin, memarlıq əsərlərinin, səs-küylü bazarların, dar və labirint küçələrin, cibgirlərin, gurultulu motorinoların və qəşəng butiklərin partlayıcı qarışığıdır. Tutaq ki, dar bir küçə ilə gəzirsən, sözün əsl mənasında skuterdən qaçırsan, sağa baxırsan və orada erkən xristian bazilikasıdır. Bu, Neapolda hər addımda rast gəlinən haldır. Tarixi yerləri ilin bütün fəsillərində dünyanın hər yerindən turistlər və tədqiqatçılar ziyarət edirlər. Turistlər rəylərində "Neapolda siz həmişə ehtiyatda olmalısınız", - deyə qeyd edirlər. Küçələrdə gəzərkən hər an sizdən nəyinsə oğurlana biləcəyi hissi ilə yanaşı, çoxlu sayda avtomobil, motosiklet və skuterlərin təhlükəsini hiss edirsən. Neapollular yol hərəkəti qaydalarına çox az hörmət edirlər. Aralıq dənizi vasitəsilə buraya gələn miqrantlar artıq yerli əhali tərəfindən də həzm edilib. Ərəblər, afrikalılar, mərakeşlilər, seneqallılar, hindlilər, pakistanlılar burada yad görünmürlər.













## YERLİ MƏTBƏXƏ LAQEYD QALMAQ MÜMKÜN DEYİL

Neapolda yerli mətbəxə laqeyd qalmaq mümkün deyil. Mətbəxi bu rəngarəng şəhərin ayrılmaz hissəsidir. Şəhərdə əsl yemək kultu var. Kiçik kafelər, pizzaçılar, restoranlar və xəmir dükanları bütün şəhərə səpələnib. Yerli sakinlər YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsi kimi tanınan pizzanın Neapolda yaranması ilə öyünürlər. Burada pizzanın 16-cı əsrdə meydana gəldiyi güman edilir. 1738-ci ildə açılmış şəhərin ən qədim pizzacısı hələ də fəaliyyət göstərir: "Pizzeria Antica Port Alba". Neapolda və bütün dünyada ən məşhur pizza Savoy kraliçası Marqaritanın adını daşıyan "Margherita"dır. O, pizzanı çox sevirdi və özü sonradan onun adını daşıyan reseptin yaradılmasında iştirak edib. Hər il sentyabr ayında Neapolda dünyaca məşhur "Pizzafest" festivalı keçirilir.

## MARADONA NEAPOLUN SİMVOLU KİMİ

Qədim şəhərin küçələrini gəzdikcə əfsanəvi futbolçu Dieqo Maradonaya olan sonsuz sevgi adamı heyran edir. Hərküncdə, divarda Maradonanın qrafitisi ilə üz-üzəsən. Maradona Napoli şəhəri üçün sadəcə əfsanəvi futbolçu deyil, əsl simvol və kumirdir. "Napoli" azarkeşləri ona aşiqdirlər. Suvenir dükanları 10 nömrəli maykalarla, fotoları həkk olunan əşyalarla bəzənib. Şəhər bələdiyyəsi Maradonanın Neapoldan keçdiyi emblemli yerləri izləməyə məcbur edən turizm marşrutu yaradıb. Zarafat deyil, argentinalı futbolçu "Napoli"ni iki dəfə ölkə çempionluğuna yüksəldib, Neapolu futbol paytaxtına çevirib. Maradonanın "Napoli"yə təsiri futbol meydançasından kənara çıxıb, o, çətin anlarda ondan ilham, ümid tapan bütün şəhər sakinləri üçün qəhrəman olub, özündənrazı italyanların qəlbinə nüfuz edib. Futbolçu Napoli şəhərinin firavanlığının və gücünün simvoluna çevrilib. Əfsanəvi futbolçunun moda və üsluba təsiri də çox böyük olub. Onun obrazı azadlıq, ehtiras və üsyan simvoluna çevrilib. Bu gün "Napoli" stadionu əfsanəvi futbolçunun adını daşımaqla bərabər, onun xatirə əşyaları və interaktiv eksponatlarını sərgiləyən muzeyinə milyonlarla turistləri cəlb edir.

BU İDEYA MİLLİ MƏCLİSDƏ DƏ TƏKLİF KİMİ GÜNDƏMƏ GƏTİRİLİB

# KİNO SƏNAYESİ ƏDV-DƏN AZAD OLUNARSA...

Azərbaycanda film çəkilişlərinə vergi güzəştlərinin edilməsi məsələsi gündəmə gəlib. Kino təmsilçilərinin irəli sürdüyü bu təklif deputatlar tərəfindən də dəstəklənir.




**ALMAZ QASIMOVA**

Azərbaycan filmi dedikdə üzdə bir anlıq təbəssüm yaransa da, bir neçə saniyədə bu təbəssüm yerini tərəddüd dolu baxışlara verir. Çünki son illərdə kino sənayesi ilə bağlı durum heç də yaxşı deyil. "Bəyin oğurlanması" filmində deyildiyi kimi, "səkkiz min pul alıblar, oynamaqlarına bax".

### BİLƏCƏRİYƏ BELƏ ÇATMAYAN FİLMLƏR

Görəsən, həqiqətən oynaya bilmirik, yoxsa şabaşımız azdır? Problem nədədir? Son zamanlar kommersiya xarakterli komediya janrında çəkilən filmlər az da olsa tamaşaçıda ümid yarada bilib. Amma el dili ilə desək, bu filmlər də Biləcəridən o tərəfə keçməyib. Kino sənayesinin düzgün qurula bilməməsi, bunu yaradan problemlərin müəyyən səbəbləri var ki, zaman-zaman müzakirə edilib. "Azərbaycan filmləri əlavə dəyər vergisindən azad olunsa, yaxşı olardı". Bu ifadəni də film adamlarının dilindən tez-tez eşidirik. Kino sənayesinin vergidən azad olunması bizə nə verəcək, bu addım atılarsa, yaxşı filmlər ərsəyə gətirə biləcəyikmi?


Rövşən İsax

### DÖVLƏT DƏSTƏYİ OLMALIDIR

Rejissor Rövşən İsax deyir ki, Azərbaycan film sənayesi dünya kinosundan çox geri qalır: "Buna görə də film sahəsinin inkişafı üçün birmənalı şəkildə dövlət dəstəyi olmalıdır. Təcrübədən bilirik ki, kino inteqrasiyanı çox sevir. Hansısa aktyorun, rejissorun, ssenaristin, operatorun buraya dəvət olunması üçün dövlətin dəstəyi lazımdır. Əgər film sənayesi vergidən azad olunsa, xaricdən lazım olan mütəxəssisləri gətirməyə gücümüz çatar".

### BU PROSES MÜDDƏTLİ DƏ OLA BİLƏR

Rejissor deyir ki, film sənayesi vergidən azad olunarsa, bir müddət sonra Türkiyə, Rusiya, hətta ABŞ, İspaniya kimi ölkələr də bu sahəyə maraq göstərəcək: "Bir sözlə, əlimiz-qolumuz açılacaq. Bu proses müddətli də ola bilər. Məsələn, 5-10 il müddətinə filmləri əlavə dəyər vergisindən azad edirik. Bu vaxt ərzində nə edə biləcəyimizə baxırıq. Kino dövlətin simasıdır. Azərbaycanda çoxdan vaxtı çatmış, ekrana köçürülməli o qədər mövzu var ki... Bəlli çətinliklər onları həyata keçirməyə imkan vermir. Kino sənayesi vergidən azad olunarsa, dövlət sifarişi ilə bir film çəkiləcəksə, özəl sektorda üç film çəkiləcək. Yekunda bütün yükün hamısı dövlətin çiyninə düşməyəcək".

## TƏKLİF DÜZGÜN HAZIRLANMALIDIR

Kinoprodüser, rejissor Zaur Mirzəzadə deyir ki, əlavə dəyər vergisinin götürülməsi üçün hökumətə normal konseptual təklif verilməlidir: "Əminəm ki, İqtisadiyyat Nazirliyinə normal konseptual təklif verilsə və bu təklifin ölkəmizdə film sənayesinin inkişafına təkan verəcəyi sübut olunsa, bu məsələ öz həllini tapacaq. Qeyri-neft sektorunun inkişaf strategiyasında film sənayesinin vacibliyini dəfələrlə qeyd etmişəm. Film sahəsi olmayan digər audio-vizual sahələrdə güzəştlər demək olar yoxdur. Amma şirkətlər böyük büdcəsi olan reklamlar çəkdirirlər, tədbirlər keçirirlər. Sadəcə, film istehsal edənlərin onlara verdikləri təklif qaneedici deyil. Təklifi düzgün hazırlamaq lazımdır".


Zaur Mirzəzadə

## YALNIZ O ZAMAN VERGİ VERİLSİN Kİ...

Milli Məclisin Mədəniyyət komitəsinin üzvü, deputat Aqil Abbasın sözlərinə görə, filmlərin əlavə dəyər vergisindən azad olunması ilə bağlı məsələni parlamentdə şəxsən qaldırıb: "Bildirmişəm ki, filmlərə ayrılan puldan əvvəldən vergi tutulmasın. Yalnız o vaxt vergi verilsin ki, artıq film satışdadır və pul qazanır".


Aqil Abbas

Foto: Ehtiram Cəbi /Global Media Group

### AZƏRBAYCANI YOX, GÜRCÜSTANI SEÇİRLƏR

Milli Məclisin deputatı Vüqar Bayramov məsələnin gündəmdə olduğunu bildirdi: "Büdcə müzakirəsi zamanı təkliflərimizdən biri də incəsənət sektorunun əlavə dəyər vergisindən azad edilməsi ilə bağlı idi. Həm filmlər, həm də digər çəkilişlərin əlavə dəyər vergisinə cəlb edilməsi onların xərclərini artırır. Bizim də təklifimiz ondan ibarətdir ki, filmlərin əlavə dəyər vergisindən azad olunması barədə qərar verilsin. Bu, bir tərəfdən daha çox filmin çəkilməsinə, digər tərəfdən bu sahəyə xarici investisiyaların cəlb edilməsinə şərait yarada bilər".

Deputat qeyd edir ki, hazırda Azərbaycanda film çəkmək üçün müraciət edən ölkələr var. Amma bizdə əlavə dəyər vergisi tətbiq olunduğu üçün çəkilişlərini Gürcüstanda həyata keçirirlər: "Bu istiqamətdə təkliflərimizin müzakirəsi davam etdiriləcək. Ümid edirik ki, film çəkilişlərinin daha yaxın zamanda əlavə dəyər vergisindən azad edilməsi mümkün olacaq".


Vüqar Bayramov

Foto: Firudin Səlimov/Global Media Group

Üç əsrin qəzeti Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 3256
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
9 DEKABR ŞƏNBƏ 2023
www.kaspi.az



B Liqasına yüksəlmək Avropanın ortababları sırasına qoşulmaq deməkdir. Orada millimizi daha ciddi sınaqlar, daha böyük rəqiblər gözləyir.



# QIZLAR BACARDI!

## QİTƏNİN ORTABABINA ÇEVRİLMƏKDƏ OLAN AZƏRBAYCAN MİLLİSİ

Qadın futbolçulardan ibarət Azərbaycan millisi tarixi uğura imza atıb. "Zəriflərimiz" Millətlər Liqasının C Liqasının 3-cü qrupunda rəqiblərini üstələyərək B Liqasına vəsiqə əldə edib. Bu, qadın futbolunun yeni olduğu Azərbaycan üçün olduqca böyük nəticədir.

**DÜNYADA QADIN FUTBOLUNUN YÜKSƏLİŞİ**

Futbol, ümumən, daha çox kişilərin oyunu kimi assosiasiya olunsa da, son illərdə bu yanaşma dəyişməkdədir. Ali futbol qurumları - FIFA və UEFA təbliğat kampaniyaları, beynəlxalq yarışların təşkili, maliyyə yardımları ilə bu sahədə inkişafa nail olmaqda maraqlıdır. İlk dəfə təşkil olunan Millətlər Liqası da bu istiqamətdə atılan növbəti addım idi.

Qadın futbolunun ümumi futbolda çəkisi getdikcə artır. Artıq qadın klublarının nümayəndələri beynəlxalq qurumlarda təmsil olunurlar. Son olaraq Avropa Klublar Assosiasiyası qərar qəbul edib ki, İdarə Heyətinə seçkilərdə bir yer məhz qadın klublarına ayrılır.

Beynəlxalq qurumlarla yanaşı, böyük futbol klubları da bu sahədə perspektivi hiss edərək, yatırımları artırırlar. Qadınlar arasında UEFA Çempionlar Liqası kifayət qədər nüfuzlu turnirə çevrilib. Təsadüfi deyil ki, ötən il İspaniyanın "Barselona" və Almaniyanın "Volfsburq" qadın komandaları arasındakı yarımfinal oyununu "Kamp Nou" stadionunda 91 min 648 azarkeş tribunadan izləyib.

Ölkəmizdə qadın futbolunun tarixi çox qısadır. 2010-cu ildə U-15 komandası formalaşdırılıb və bundan sonra addım-addım irəliləyiş əldə edilib. Düzdür, ilk vaxtlar acınacaqlı nəticələr olub. Milli komandanın 8, 13, hətta 15 qol buraxdığı oyunlar da olub. Lakin bunlar artıq uzaq keçmiş hesab edilə bilər. Son bir neçə ildə nəinki böyük hesablı yenilgilərin sayı azalıb, hətta ümumiyyətlə məğlubiyyətlər nadirən qeydə alınır. Komandamız son doqquz matçda rəqiblərinə uduzmayıb.

Millətlər Liqasında Monteneqro, Kipr və Farer adaları ilə eyni qrupda yer alan Azərbaycan millisi altı matçın beşində qələbə qazandı və bir heç-heçə etdi. Qrup mərhələsini məğlubiyyətsiz başa vuran qızlarımız 16 xal topladılar və Monteneqronu dörd xal üstələyərək lider kimi B Liqasına adladılar. Ümumilikdə doqquz top vuran komanda qapısında cəmi ikisini gördü.

Əlbəttə, adıçəkilən rəqiblər Avropada elə də güclü hesab olunmurlar. Lakin onların hər birində qadın futbolunun təşəkkülü Azərbaycanla müqayisədə daha əvvələ söykənir. Digər tərəfdən, uzun illər yalnız məğlubiyyətlərə öyrəşmiş yığmanın qrup mərhələsini yenilgisiz başa vurması, ardıcıl beş qələbə əldə etməsi psixoloji olaraq da çox ciddi məqamdır. B Liqasına yüksəlmək Avropanın ortababları sırasına qoşulmaq deməkdir. Orada millimizi daha ciddi sınaqlar, daha böyük rəqiblər gözləyir.





Siyasət Əsgərov

## UĞURUN MEMARI

Azərbaycan qadın futbolunda bu gün üçün böyük hesab olunan uğurun əsas memarı komandanın baş məşqçisi Siyasət Əsgərovdur. Ümumiyyətlə, ölkə futbol ictimaiyyətində qadın futbolu dedikdə ağıla məhz onun adı gəlir. S.Əsgərov ilk vaxtlardan yığmanın başındadır və hazırkı komandanı tamamilə o formalaşdırıb. S.Əsgərov, həmçinin, Türkiyənin "ALG Spor" komandasının da baş məşqçisidir. Ötən mövsüm adıçəkilən klubda idman direktoru olan mütəxəssis çempionluğu bayram edib. Hazırda isə komanda "Qalatasaray", "Fənərbağça", "Beşiktaş" kimi klubların qadın komandaları ilə mübarizədə yenidən zirvədədir.

Türkiyə təcrübəsi S.Əsgərovun milli komandadakı işinə təsirsiz ötüşmür. Xüsusən son iki ildə nəticələrdə müşahidə olunan yaxşılaşma bunu demək üçün əsasdır. Mütəxəssis həm özünü inkişaf etdirir, həm də oyunçularını.

**PERSPEKTİV VARMI?**

Milli komandanın son oyunlar üçün heyətinə cəlb olunan 23 futbolçudan 17-si ölkə xaricində çıxış edir. Oyunçularımız Türkiyə, Yunanıstan, Rusiya kimi qadın futbol liqaları Azərbaycanla müqayisədə daha yüksək səviyyədə olan çempionatlarda oynayırlar ki, bu da yekunda onların ustalıq səviyyəsinin artmasına səbəb olur.

Ölkə daxilində keçirilən yarışların vəziyyəti isə o qədər də ürəkaçan hesab edilə bilməz. Aşağı yaşlarda kütləvilik olsa da, Yüksək Liqada komanda sayı azdır. Üstəlik iştirakçılar arasında səviyyə fərqi böyükdür. Rəqabətsiz mühit isə inkişafa mane olan amildir.

Millinin nəticələrindən görünür ki, azərbaycanlı qızların futbol oynamaq üçün kifayət qədər bacarığı var. Ölkədaxili yarışların səviyyəsinin yüksəldilməsi ilə prosesə daha da təkan vermək olar. U-14 liqasında yarışan komanda sayının çoxluğu artıq valideynlərin qızlarını futbola yönləndirməkdə istəkli olduğunun göstəricisidir.

Onların inkişafının daha düzgün təmin edilməsi üçün digər yarışlarda həm kəmiyyət, həm də keyfiyyət artmalıdır. Federasiyanın qadın futboluna yanaşmada istifadə etdiyi şüar da çox maraqlıdır: "Qızlar bacarır!"Həqiqətən, bacarırlar və bacardılar da.

Müəyyən çatışmazlıqlar aradan qaldırılarsa, gələcəkdə daha yaxşılarını da bacara bilərlər.